www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 mart 2017-ci il Cümə № 53 (6667) Qiyməti 60 qəpik

## Xəbər

**Bayramda üç qadın dəm qazından öldü-biri 23 yaşlı modeldir**

yazısı səh.12-də

## Gündəm

### Qərb Qarabağda sülh istəyir, amma əvəzində...



Minsk Qrupunun keçmiş həmsədri Ceyms Uorlikin tənzimləmənin zəruriliyi barədə verdiyi açıqlama yeni suallara yol açıb; politoloq: "Azərbaycana qarşı təzyiqlər var..."

yazısı səh.11-də

### Mehriban Əliyeva ilk müşavirəsini çağırdı

yazısı səh.3-də

### 80 yaşlı Elmira Süleymanovanın səlahiyyət müəmması

yazısı səh.10-da

### Avropa İttifaqı ilə Bakı arasında danışıqlar yenidən gərgin mərhələdə-səbəb

yazısı səh.9-da

### Bakı aeroportunda terrorçunu zərərsizləşdirən azərbaycanlı ekstrasens

yazısı səh.13-də

### Cenevrədə Azərbaycanla bağlı sərt müzakirələrə Bakıdan reaksiyalar

yazısı səh.8-də

*DTX rəisi:*

### "Çingiz Qurbanov dörd erməni əsgərini öldürdü, üçünü yaraladı"

yazısı səh.5-də

### 5 tələbənin qatili olan sürücü 61 dəfə cərimə olunubmuş!

yazısı səh.12-də

### Manat möhkəmlənir, bəs banklar niyə kredit vermir?

yazısı səh.14-də

### Ermənistan sanksiyalarla üzləşə bilər

yazısı səh.9-da

## Azərbaycanlıları saxta sənədlə xaricə göndərənlər kimlərdir?

# AVROPAYA MÜHACİR YOLLAYAN CİNAYƏTKAR ŞƏBƏKƏ HAQDA SENSASİON İDDİALAR...

Əcnəbi ölkələrə göndərilən vətəndaşların əksərinin cibindən AXCP-nin vəsiqəsi çıxır; saxta partiya sənədi ilə səs-küysüz mühacirət edən yüzlərlə imkanlı şəxs də var; Azərbaycandan Avropaya uzanan mühacir biznesi ilə bağlı ölkədə həbslər ola bilər




yazısı səh.5-də

## Axtarışa verilən MTN polkovniki özü ilə hansı sirləri aparıb?

İddia olunur ki, Qusar MTN-in sabiq rəisi Nazim Fətullayevin köməkliyi ilə istirahət mərkəzlərində dincəlməyə gəlmiş məmurların gizli videoları çəkilib

yazısı səh.10-da



### Eldar Mahmudova görə Azərbaycandan bir neçə milyon avro tələb olunur

yazısı səh.7-də



### Artur Rasi-zadəni əvəz edəcək şəxs kimdir?

yazısı səh.6-da



*Eldar Namazov:*

### "Müharibə ehtimalı 90 faizə yaxındır"

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 53 (6667) 10 mart 2017



## Putin Ərdoğanla görüşəcək

**Rusiya prezidenti Vladimir Putin martın 10-da Moskvada türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla Andrey Karlovun qətlinin istintaqını da müzakirə edəcək.**

"Trend"in məlumatına görə, bu barədə RF prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

D.Peskov qeyd edib ki, dövlət başçılarının görüşünün gündəliyi kifayət qədər genişdir:

"Rusiya və Türkiyə arasında Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının iclası keçiriləcək. Tərəflər ticari-iqtisadi əməkdaşlığı, "Türk axını", "Akkuyu" AES kimi layihələrin icrasını, Suriya böhranını, eləcə də Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun qətlə yetirilməsi ilə bağlı aparılan istintaq işini də müzakirə edəcəklər".

## Azərbaycan millisinin xərclərini Qətər ödədi

**Millimizin Qətər yığması ilə Dohada keçiriləcək yoldaşlıq oyununda iştirakı üçün bütün xərcləri Qətər Futbol Assosiasiyası tərəfindən ödənilib. Virtualaz.org bildirir ki, bu barədə AFFA-nın saytı məlumat yayıb.**

Xatırladaq ki, bu gün Doha şəhərindəki Al Sadd stadionunda Qətər və Azərbaycan milli komandaları arasında keçiriləcək yoldaşlıq oyunu Qətər Futbol Assosiasiyasının xahişinə əsasən televiziyada yayımlanmayacaq.

Qarşılaşma Bakı vaxtilə saat 20:00-da başlayacaq.

## Merkel "faşist" açıqlamasına münasibət bildirdi

**Almaniya kansleri Angela Merkel son günlər Berlinlə Ankara arasında yaşanan gərginliklə bağlı açıqlama verib. "Qafqazinfo" xəbər verir ki, Almaniya parlamentində çıxış edən kansler "Türkiyə önəmli ortağımızdır, lakin Nazi qarşılaşdırmasını eşitmək bizi üzdü" deyib.**

Qeyd edək ki, Türkiyə prezidenti R.T.Ərdoğanın Almaniyada referendum kampaniyasına bu ölkə rəsmiləri tərəfindən yaradılan əngəllərlə bağlı "sizin bu hərəkətləriniz keçmişdəki Nazi hərəkətlərindən fərqli deyil" sözlərini işlətmişdi.

Merkel açıqlamasında bildirib ki, türk siyasətçiləri əvvəlcədən xəbər verərək və qanunlara riayət edərək izn aldıqdan sonra toplantı keçirə bilərlər. Ərdoğanın "Nazi" açıqlamasına gəlincə, Merkel əlavə edib ki, Türkiyə Nazi dönəminə istinad etməyə son verməlidir: "Nazi qarşılaşdırması ilə bağlı ciddi şərh verə bilmərəm".

## Bu gün 18 dərəcə isti olacaq

**Martın 10-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, səhər bəzi yerlərdə zəif duman olacaq.**

Şimal-qərb küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturunun yarımadada gecə 3-5°, gündüz 10-15°, Bakıda gecə 3-5°, gündüz 13-15° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında da hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2-7°, gündüz 13-18°, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti olacaq.

### Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Zahid Səfəroğluna kürəkəni Fərhad bəyin vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Mahizər xanıma atası Əli kişinin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# Təhsil komitəsinin sədri imtahan ödənişlərinə haqq qazandırdı

**Tarif (qiymət) Şurası Dövlət İmtahan Mərkəzinin müraciəti və təkliflərini nəzərə alaraq Azərbaycanda qəbul imtahanlarında iştiraka görə ödənişləri müəyyənləşdirib. Qiymət imtahanın növündən asılı olaraq 10-100 manat arasında dəyişir. Sadə dildə desək, abituriyent 1 dəfə imtahanda iştiraka görə - kollecə qəbul üçün 20 manat, bakalavr pilləsinə qəbul üçün 40 manat, magistratura pilləsinə qəbul üçün 60 manat, rezidenturaya qəbul üçün 100 manat pul ödəməlidir.**



İsa Həbibbəyli

Tarif Şurasının təsdiqlədiyi ödənişlər Azərbaycan cəmiyyətində narazılıqla qarşılanıb. Hamı bu rəqəmlərin böyük olduğunu bildirir.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli modern.az-a açıqlamasında narazı olanlarla razılaşmayıb.

O, bu qərarı əhəmiyyətli və qiymətli saydığını bildirib.

"İlk imtahanların hamısının xərcini dövlət ödəyəcək. Bu, dövlətimizin Azərbaycanın yeni nəslinə və inkişafına göstərdiyi böyük qayğının ifadəsidir. Bu, həm də abituriyenlər arasında rəqabətin yaradılmasına gətirib çıxaracaq. Abituriyenlər çalışacaqlar ki, ilk imtahandan yüksək bal toplasınlar. Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs olduğundan, digər imtahanların ödənişli olmağı başadüşüləndir".

**Komitə sədri bildirib ki, imtahanlara o qədər də yüksək qiymət qoyulmayıb:** "Mən düşünürəm ki, buna bizim iqtisadi imkanlarımız çatar. Düzdür, elə ailələr var ki, onların iqtisadi durumu zəifdir. Onlara da fərdi qaydada baxıla bilər".

## Martın 12-də 37 mindən çox şagird imtahan verəcək

**Dövlət İmtahan Mərkəzi (DİM) martın 12-də ölkənin 33 rayonunda ümumtəhsil müəssisələrinin 9-cu sinif şagirdləri üçün buraxılış imtahanının birinci mərhələsini, 23 rayonunda isə ilk peşə-ixtisas təhsili müəssisələrinin sonuncu sinfində təhsil alan şagirdləri üçün buraxılış imtahanı keçirəcək.**

DİM-dən virtualaz.org-a verilən məlumata görə, həmin gün ümumilikdə 37 230 şagirdin imtahan verəcəyi nəzərdə tutulur.

Bu imtahanlarda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə martın 5-dən etibarən çap edib götürə bilirlər.

## Azərbaycan ötən il elektrik enerjisi ixracını dördqat artırıb

**2016-cı ildə Azərbaycan elektrik enerjisinin ixracını 2015-ci illə müqayisədə 3,9 dəfə artıraraq 1 mlrd. 46 mln. kVt/saata çatdırıb. "APA-Economics" xəbər verir ki, bu barədə Nazirlər Kabinetinin 2016-cı il fəaliyyəti haqqında hesabatında bildirilir.**

Məlumatda qeyd edilir ki, ötən il Azərbaycandan Rusiyaya elektrik enerjisi ixracı 10,8% artaraq 120,2 mln. kVt/saata çatıb. Hesabat dövründə Gürcüstana 109,5 mln. kVt/saat elektrik enerjisi ixrac olunub ki, bu da bundan öncəki illə müqayisədə 7,6% çoxdur.

2016-cı ildə Azərbaycan Türkiyəyə 813,4 mln. kVt/saat elektrik enerjisi satıb. Qeyd edək ki, 2015-ci ildə Azərbaycan Türkiyəyə elektrik enerjisi ixracı olmayıb.

Cənub qonşumuz olan İran ötən il Azərbaycandan elektrik enerjisi idxalını 20,8% artıraraq 2,9 mln. kVt/saata çatdırıb.

Ötən il Azərbaycan 65,9 mln. kVt/saat elektrik enerjisi idxal edib ki, bu da 2015-ci illə müqayisədə 38,7% çoxdur.



## Azərbaycan və Britaniya müdafiə nazirlikləri rəhbərləri nəyi müzakirə ediblər?

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov martın 9-da Azərbaycanda səfərdə olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyinin beynəlxalq siyasət üzrə direktoru Nik Qurrun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Bakıda Azərbaycan və Böyük Britaniya Müdafiə nazirlikləri arasında növbəti qərargah danışıqlarının keçirilməsinə dair məsələlərin əsas müzakirə mövzusu olduğu görüşdə ölkələrimiz arasında hərbi təhsil, xüsusilə də Silahlı Qüvvələrimizin nümayəndələrinin "Hərbi ingilis dili kursu"nda iştirakı barədə geniş fikir mübadiləsi aparılıb.

Görüşdə həmçinin hərbi, hərbi-texniki sahədə əməkdaşlığın perspektivləri, regional, dəniz, enerji resurslarının təhlükəsizliyi, terrorizmə qarşı birgə mübarizə və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Daha bir bankir "AccessBank"ın rəhbərliyindən getdi

**"AccessBank" QSC-nin rəhbərliyində daha bir dəyişiklik olub. "APA-Economics" bank sektorundakı mənbələrinə istinadən xəbər verir ki, bankın kiçik və orta biznes kreditləri, korporativ xidmətlər üzrə icraçı direktoru Kənan Ağayev bankı tərk edib.**

Onun yerinə hələlik heç bir təyinat yoxdur. Bankdan məsələyə münasibət bildirilməyib.

Qeyd edək ki, bundan öncə bankı idarə heyəti sədrinin müavini Şakir Rəhimov tərk edib. Hazırda bankir "Bank Respublika" ASC-nin Müşahidə Şurasının üzvü kimi fəaliyyət göstərir.

"AccessBank"ın nizamnamə kapitalı 85 mln. manat təşkil edir. Bankın səhmdarları 6 beynəlxalq maliyyə institutudur. Bunlar Qara Dəniz Ticarət və İnkişaf Bankı (20%), Avropa Yenidənqurma və İnkişaf Bankı (20%), Beynəlxalq Maliyyə Korporasiyası (20%), "Kreditanstalt für Wiederaufbau" ("KfW", 20%), "Access Microfinance Holding AG" (16,53%), "LFS Financial Systems GmbH" (3,47%).

## Əfv Komissiyası işini yekunlaşdırır

**Əfv Komissiyası öz işini gələn həftə yekunlaşdıracaq. Bu barədə "Qafqazinfo"ya Prezident yanında Əfv Məsələləri Komissiyasının üzvü Rəşad Məcid məlumat verib.**

O qeyd edib ki, komissiyanın növbəti iclası sabah baş tutacaq: "Həmin iclasdan sonra isə bir iclas qalır. O da gələn həftə keçiriləcək. Komissiyaya daxil olan bütün müraciətlərə baxıldıqdan sonra tövsiyə xarakterli qərar layihəsi hazırlanaraq ölkə başçısına təqdim olunacaq".

## Təqsirləndirilən qadın təcridxanada uşaq dünyaya gətirdi

**Martın 9-da Bakı Ağır Cinayətlər Məhkəməsində oğurluqda təqsirləndirilən Xalidə Bəkirova və Gülşən Bəkirovanın cinayət işi üzrə məhkəmənin hazırlıq iclası başlayıb.**

"Report"un xəbərinə görə, hakim Azər Orucovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Hazırlıq iclasında məlum olub ki, X.Bəkirova Bakı İstintaq Təcridxanasında bir neçə gün əvvəl uşaq dünyaya gətirib. Hənin körpəni məhkəmə keçirilən zala Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin əməkdaşları gətirib.

Məhkəmənin baxış iclası martın 15-nə təyin edilib.

Qeyd edək ki, hər iki qadın ötən il Bakıda yaşayış mənzillərindən qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinərkən Nərimanov Rayon Polis İdarəsinin (RPİ) 16-cı Polis Bölməsinin (PB) əməkdaşları tərəfindən saxlanılıb.

Məlumata görə, onlar Nərimanov rayon ərazisində bir mənzildən 12 min manat dəyərində qızıl-zinət əşyaları oğurlayıblar.

X.Bəkirova və G.Bəkirova Cinayət Məcəlləsinin 177.3.2-ci (külli miqdarda oğurluq) maddəsi ilə ittiham olunurlar.

## Qızı özünü öldürdü, ana da dözmədi-Şamaxıda faciə

**Şamux sakini, 16 yaşlı Ələkbərova Billu Elman qızı özünü ov tüfəngi ilə vurub. Yeniyetmə qız aldığı xəsarətdən ölüb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, özünü güllələyən 16 yaşlı Billi Ələkbərovanın anası, 1963-cü il təvəllüdlü İradə Ələkbərova qızının ölümündən sonra kimyəvi məhlul içib. O, dərhal Gəncədə olan xəstəxanaların birinə yerləşdirilib. Vəziyyətinin orta-ağır olduğu bildirilir.**

YENİ MÜSAVAT
N 53 (6667) 10 mart 2017

# "Daxili İşlər Nazirliyi sistemində narkotiklərlə mübarizə peşəkarlıqla aparılır"

## Ehsan Zahidov: "Narkotiklərlə mübarizə sahəsində ayrıca dövlət qurumunun yaradılması ideyası çoxdan köhnəlib"

**Son günlər mediada Azərbaycanda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin düzgün təşkil olunmaması, həmin cinayətlərin statistikasının reallığı əks etdirməməsi və elə bu səbəbdən də narkotiklərlə mübarizə üzrə ayrıca dövlət qurumunun yaradılmasının zəruriliyi haqda fikirlər səsləndirilir. Bununla bağlı "Yeni Müsavat" qəzeti Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidova müraciət edib, ondan bu ittihamlara münasibət öyrənib.**

***- Ehsan müəllim, bu ittihamlarla bağlı nə deyə bilərsiniz? Sizcə, burda qərəzlilik var, yoxsa qeyri-peşəkarlıq? Yaxud hər ikisi?***

- Bir sıra kütləvi informasiya vasitələrində özlərini hüquq-mühafizə orqanlarının fəaliyyəti üzrə "mütəxəssis" sayan bəzi şəxslər tərəfindən belə absurd iddialar səsləndirilir. Narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınması dünyanın bütün dövlətlərini narahat edən qlobal problemlərdən biridir. Onun həlli - əks tədbirlərin kompleks şəkildə aparılmasını, dövlətin, cəmiyyətin, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin səylərinin birləşdirilməsini, xarici ölkələrin müvafiq strukturları ilə səmərəli iş birliyini tələb edir. Məsələnin ciddiliyi və milli maraqlar nəzərə alınaraq, respublikamızda uzun illərdir ki, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə də dövlət səviyyəsində mütərəqqi, məqsədyönlü və uğurlu siyasət reallaşdırılır. Görülmüş təşkilati tədbirlərlə beynəlxalq standartlara cavab verən hüquqi baza yaradılmış, institusional islahatlar aparılmış və artıq geniş tədbirləri əks etdirən sayca üçüncü Dövlət Proqramı icra olunur.

***- Bununla bağlı Daxili İşlər Nazirliyi hansı işlər görür?***

- Bu sahədə dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanlarından olan Daxili İşlər Nazirliyi, öz növbəsində, narkotiklərin qeyri-qanuni istifadəsinə tələbatın azaldılması, satışının mümkünsüzlüyə çevrilməsi üçün aidiyyəti dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə birgə davamlı iş aparır. Heç də sirr deyil ki, narkomanlıq xəstəliyinə düçar olmuş şəxslər narkotikə olan tələbatlarını ödəyə bilmədikdə idarəolunmaz vəziyyətə düşür, başqalarının həyat və sağlamlığına ciddi təhlükə yaradan hərəkətlərə yol verir, istənilən vasitə ilə pul əldə etmək üçün cinayət törətməkdən belə çəkinmirlər. Bunu qanunvericiliklə ibtidai araşdırılması daxili işlər orqanlarının səlahiyyətlərinə aid edilmiş oğurluq, soyğunçuluq, quldurluq və digər ağır cinayətlərin istintaqının nəticələri, habelə onların baş vermə səbəblərinin öyrənilməsi məqsədilə aparılan tədqiqatlar da təsdiqləyir. Burada nəzərə alınması vacib olan daha bir məsələ qeyri-aşkar şəraitdə baş verən cinayətlərin içində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı olanların,



həmçinin oğurluqların, soyğunçuluqların, quldurluqların xüsusi çəkisinin çox yüksək - 81 faiz təşkil etməsidir.

Belə olduğu təqdirdə, əsas təyinatı cinayətlərin, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı hüquqazidd əməllərin qarşısını almaq, onları açmaq, cinayətin iştirakçılarını tapıb tutmaq, istintaqını aparmaq, ümumən dövlətin, cəmiyyətin və hər bir şəxsin qanuni mənafelərini hüquqazidd əməllərdən qorumaq olan Daxili İşlər Nazirliyi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin müsbət və səmərəli nəticələr verməsində necə maraqlı ola bilər?!

Əksinə, nazirlik narkotiklərin və narkomanlığın yayılmasının qarşısının alınmasında ən maraqlı tərəfdir və bu qəbildən olan cinayətlərlə mübarizədə daim prinsipial və barışmaz mövqedən çıxış edir.

***- Narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması və narkomanlığa qarşı mübarizə işində DİN digər dövlət orqanları ilə hansı ortaq işlər həyata keçirir?***

- DİN digər hüquq-mühafizə və xüsusi xidmət orqanları ilə sıx qarşılıqlı əlaqədə narkotik vasitələri, psixotrop maddələri ölkəyə gətirən, satışını təşkil edən cinayətkar qrupların və ayrı-ayrı şəxslərin müəyyənləşdirilib məsuliyyətə cəlb edilməsi istiqamətində səmərəli və məqsədyönlü iş aparır.

***- Bu elə bir həssas mövzudur ki, mütləq burada maarifləndirmə işləri də aparılmalıdır.***

- Bəli, sizinlə razıyam. Daxili İşlər Nazirliyi hüquqi məsuliyyət tədbirlərinə paralel olaraq prokurorluq orqanları, yerli icra hakimiyyətləri, aidiyyəti sahənin mütəxəssisləri, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri ilə birgə əhali arasında, həmçinin təhsil müəssisələrində geniş maarifləndirmə işləri həyata keçirir. İnsanları, ilk növbədə gəncləri narkomanlığın doğurduğu təhlükələr barədə məlumatlandırmaq, onun acı nəticələrini yaşamaqdan çəkindirmək məqsədilə, respublikanın şəhər və rayonlarında hər il yüzlərlə belə görüş təşkil edilir. Digər tərəfdən, narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə edən şəxslərin müalicəsi və sağlam həyat tərzinə qaytarılması da başlıca və davamlı surətdə həyata keçirilən vəzifələr olaraq, bu sahədə tibb müəssisələri ilə qarşılıqlı əlaqədə konkret tədbirlər görülür.

***- Göstərilən cinayətlərin statistikasının aparılması məsələsinə də toxunmaq yerinə düşərdi.***

- İlk növbədə diqqətə çatdıraq ki, bu növ cinayətlər latent xarakterlidir, yəni qeyri-aşkar şəraitdə baş verən cinayətlərdir. Onların statistikası isə məhz aşkarlanmış müvafiq faktların sayına uyğun olur. Əgər cinayət qeydiyyata alınmayıbsa, sözsüz ki, həmin neqativ halın müəyyən edilib lazımi tədbirlər görülməsi üçün kifayət qədər imkanlar, o cümlədən daxili nəzarət qurumları, "qaynar xətt"lər və s. mövcuddur. Qeydiyyata almama, uçotdan gizlədilmə kimi hallar bu gün praktiki cəhətdən demək olar ki, qeyri-mümkündür. Belə neqativ əməllərə yol verən əməkdaş müəyyən edilərsə, barəsində daxili işlər orqanlarında xidmətdən xaric olunmaya, hətta cinayət məsuliyyətinə cəlb edilməyədək ən sərt tədbirlər görülür.

***- Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə işində ayrıca dövlət strukturunun yaradılması fikrinə münasibətinizi bilmək maraqlı olardı...***

- Bu məsələdə Rusiya, Ukrayna və Gürcüstanın təcrübəsindən istifadə edilməklə ayrıca dövlət strukturunun yaradılması fikrinə gəldikdə isə, bildiririk ki, bu, aktuallığını çoxdan itirmiş bir ideyadır.

Adları çəkilən ölkələrdə narkotiklərlə mübarizə qurumları müəyyən müddət ərzində müstəqil dövlət orqanı statusunda fəaliyyət göstərsə də, sonradan praktikada özünü doğrultmadığından və gözlənilən müsbət nəticəni vermədiyindən, yenidən Daxili İşlər Nazirliyinin tabeliyinə verilib.

Sonda onu da demək istərdik ki, hər hansı bir məsələ ilə bağlı ekspert qismində çıxış etmək iddiasında olan şəxsin müvafiq sahədə hərtərəfli biliyə və məlumata malik olması mütləqdir, əks halda, əsl ekspertlə diletant arasında heç bir fərq qalmır, nəticədə isə oxuculara düzgün məlumat çatdırılmır.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Mehriban Əliyeva ilk müşavirəsini çağırdı

**Martın 9-da Azərbaycan Respublikasının birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirilib.**



# AŞ PA həmməruzəçiləri Azərbaycanla bağlı məruzəni təqdim etdilər

**Avropa Şurası Parlament Assambleyası (AŞ PA) Monitorinq Komitəsinin həmməruzəçiləri Ştefan Şennax və Sezar Florin Preda yanvarın 12-14-də Azərbaycana etdikləri səfərin yekunları ilə əlaqədar məruzəni AŞ PA Komitəsinin iclasında təqdim ediblər.**

"Report" xəbər verir ki, AŞ PA Monitorinq Komitəsinin iclası martın 8-də Parisdə keçirilib.

Ştefan Şennax və Sezar Florin Preda məruzədə Azərbaycanda QHT-lər haqqında qanunvericiliyi, ölkədə keçirilən konstitusiya referendumu, həmçinin söz azadlığı ilə bağlı vəziyyəti yenidən qiymətləndiriblər.

Həmməruzəçilər islahat proseslərinə "təkan verilməsi" və Azərbaycan hökuməti ilə dialoqun davam etdirilməsinin əhəmiyyətini qeyd ediblər.

# Stefan Şennak AŞ PA-nın münaqişələr üzrə alt komitəsinin sədri seçilib

**Stefan Şennak Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Monitorinq Komitəsinin münaqişələr üzrə alt komitəsinin sədri seçilib.**




APA-nın məlumatına görə, bu barədə S.Şennak özünün twitter səhifəsində yazıb.

Sözügedən komitə Dağlıq Qarabağ, Dnestryanı, Krım və Cənubi Osetiya münaqişələri ilə məşğul olacaq.

Xatırladaq ki, S.Şennak AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisidir.

# ABŞ səfiri: "Dağlıq Qarabağ problemi çox uzandı"

**"Dağlıq Qarabağ problemi çox uzandı. Münaqişənin hərbi yolla həlli mümkün deyil".**

APA-nın verdiyi xəbərə görə, bunu ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta deyib.

Problemin danışıqlar yolu ilə həll edilməli olduğunu vurğulayan diplomat ATƏT-in Minsk Qrupu həmsədrlərinin bugünlərdə Azərbaycana səfər edəcəklərini xatırladıb.

"Var gücümüzlə çalışacağıq ki, münaqişənin həlli istiqamətində işlər görülsün", - deyə o bildirib.

YENİ MÜSAVAT
N 53 (6667) 10 mart 2017

# “Müharibə ehtimalı 90 faizə yaxındır”

## Eldar Namazov: “Ermənistanın siyasi rəhbərliyi artıq siyasi qərarını verdi ki, torpaqları qaytarmalı olacaqlarsa, qoy Azərbaycan bunu müharibə yolu ilə alsın, nəinki biz onun altından imza ataq”

**Daha bir erməni alim Bakıda təsis olunan “Ermənistan-Azərbaycan Sülh Platforması”na qoşulduğunu açıqlayıb. Azərbaycan maraqlı bir proses başladıb, ancaq işğalçı ölkə bu prosesi ya sükutla müşayiət edir, ya da vaxtaşırı cəbhədə gərginliyi artırmaqla, təxribatlar törətməklə “reaksiya verir”. Sülh Platforması ilə bağlı Azərbaycan Naminə İctimai Forumun prezidenti, politoloq Eldar Namazovla danışdıq.**

***- Eldar bəy, Azərbaycan tərəf işğala məruz qalsa da, sülh tərəfdarı kimi prinsipial mövqe sərgiləyir, ancaq işğalçı ölkənin rəhbərliyi sanki bu prosesi görməzdən gəlir. Siz bu prosesi necə dəyərləndirirsiniz?***

- Aprel döyüşlərindən sonra Ermənistan cəmiyyətində çox ciddi parçalanma meydana gəlib. Hiss olunur ki, Ermənistan hakimiyyəti özü artıq siyasi qərar verib ki, danışıqlar yolu ilə heç bir güzəştə getməyəcəklər və onlar torpaqları sülh yolu ilə azad etməyə hazır deyillər. Bu, onun göstəricisidir ki, onlar əslinə qalsa, qorxu içindədirlər. Onlar pis və ondan da pis variant arasında seçim etməli olurlar. Onlar üçün müharibə yolu ilə torpaqları qaytarmaq daha məqbul sayılır, nəinki sülh, danışıqlar yolu ilə. Ona görə ki, biz torpaqları müharibə ilə qaytarsaq, onlar həmişə müxtəlif bəhanələr tapacaqlar ki, “neftimiz, qazımız yoxdur, Rusiya köməklik eləmədi”. Ancaq sülh, danışıqlar yolu ilə torpaqların azad olunmasının altına imza atmaqdan onlar daha çox qorxurlar. Qorxurlar ki, radikal, millətçi qruplar tərəfindən hətta terrora da məruz qala bilərlər və onların üzərinə milli xəyanətkar damğası da vurula bilər. Ona görə də mənə elə gəlir ki, Ermənistanın siyasi rəhbərliyi artıq siyasi qərarını verdi ki, torpaqları qaytarmalı olacaqlarsa, qoy Azərbaycan bunu müharibə yolu ilə alsın, nəinki biz onun altından imza ataq.

Amma Ermənistan cəmiyyətində başqa istiqamətdə bir canlanma yarandı. Bir tərəfdən Levon Ter-Petrosyan bəyan etdi ki, “mərhələli plan”la sülh sazişi imzalanmalıdır və bu şüarla da biz seçkilərə gedirik. Artıq belə bir siyasi blok formalaşıb, “mərhələli plan”a dəstəklə parlament seçkilərinə gedir. Siz də bilirsiniz ki, biz rəsmi olaraq “mərhələli plan”ı dəstəkləyirik. Vaxtilə Heydər Əliyevin dövründə də, Ter-Petrosyan hakimiyyətdə olanda da onlar hər ikisi mərhələli plana razılıq vermişdilər. Başqa bir istiqamətdə ümumiyyətlə “sıfır” variantına, 80-ci illərin əvvəllərinə qayıtmaq ideyasıdır ki, bu, ermənilər tərəfindən bir yanlış addım olub, torpaqlar qaytarılsın və erməni icması da Azərbaycanın tərkibində muxtariyyət statusu alsın. Bax, erməni cəmiyyətində belə bir parçalanma mövcuddur və biz bunu görürük. Ona görə də cəbhə bölgəsində müxtəlif təxribatlar törədirlər, bunlar Ermənistan hakimiyyəti tərəfindən təşkil olunur. Ancaq Ermənistanın içərisində başqa istiqamətdə də müəyyən parçalanmalar mövcuddur. O cümlədən siz dediyiniz kimi, Ermənistan cəmiyyətində Sülh Platformasına qoşulanlar da gün-gündən artır.



**“Erməni cəmiyyətində məhz aprel döyüşündən sonra ikinci müharibədən canlarını qurtarmaq, sülh yolu ilə Azərbaycan və Türkiyə ilə barışmaq yolu tutan adamlar çoxalıb”**

***- Eldar bəy, Azərbaycan cəmiyyətində də bəzən Sülh Platforması ilə bağlı etirazlar ifadə olunur, bunu barışıq, təslimçilik kimi qələmə verənlər var. Siz yəqin ki, bu platformanın məram-məqsədindən məlumatlısınız. Narahatlığa əsaslar varmı?***

- Təəssüf ki, Azərbaycanda bir çoxları Sülh Platforması ilə geniş tanış deyil. Müxtəlif bəyanatları eşidirlər ki, o platformaya filankəs qoşuldu, çünki sülhün, diplomatik yolla həllin tərəfdarıdır. Cəbhə bölgəsində olan insanlarda etiraz edir ki, döyüşlər gedir, biz şəhid veririk, hansı sülhdən söhbət gedə bilər. Ancaq bir çoxları bilmir ki, o sənəddə nələr əksini tapıb. O sənəddə konkret qeyd olunub ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində muxtariyyət statusu alır, qaçqınlar doğma yurd-yuvalarına qayıdır. Yəni bu sənəddə Azərbaycanın istədiyi bütün məqsədlər, bizə lazım olan bəndlər mövcuddur.

***- Şəxsən siz Sülh Platformasına qoşulacaqsınızmı?***

- Bu yaxınlarda bizim Qarabağ Şurasının növbəti iclasında ölkənin tanınmış ekspertlərinin iştirakı ilə müzakirə olunurdu. Ümumi rəy o oldu ki, bu sənədə dəstək vermək və beynəlxalq qurumlarla danışıqlarda bu sənəddən istifadə etmək lazımdır. Qarabağ Şurası da bununla bağlı qərar qəbul etdi. Daha vacib olan odur ki, Ermənistan tərəfdən insanlar bəyanat verib bu sənədə qoşulurlar. Bu, onu göstərir ki, erməni cəmiyyətində məhz aprel döyüşündən sonra ikinci müharibədən canlarını qurtarmaq, sülh yolu ilə Azərbaycan və Türkiyə ilə barışmaq yolu tutan adamlar çoxalıb. Bir tərəfdən Ermənistan hakimiyyəti öz məkrli niyyətlərini həyata keçirir, faktiki olaraq bizi müharibəyə sövq edir. Ancaq eyni zamanda Ermənistan cəmiyyəti də həm güclərin balansını daha dəqiq başa düşür, eyni zamanda erməni cəmiyyətində vaxtilə buraxılan səhvləri etiraf edib Azərbaycanla, Türkiyə ilə barışığa getmək meylləri güclənib.

***- Beynəlxalq aləmin, aparıcı paytaxtların Sülh Platformasına reaksiyası da adekvat deyil. Sanki onlar da Bakının bu addımını gözləmirmişlər və Azərbaycanın sülhə yönəlik konkret təşəbbüslərini sükutla qarşılayırlar. Niyə?***

- Təbii ki, erməni təbliğat maşını bu təşəbbüsün əleyhinə bütün dünyada işləyir. Ancaq Qarabağ kimi ciddi problemlə üz-üzə qalan xalq olaraq gərək biz də nəzərə alaq ki, bunun yalnız hərbi, yaxud yalnız sülh yolu yoxdur. Bütün hallarda bunun həlində güc amili, həmçinin müəyyən bir diplomatik addımlar, təbliğat da öz rolunu oynamalıdır. Gücün olmayanda təbliğat aparmağın da mənası yoxdur, diplomatik səylər də nəticə verməyəcək. Yalnız gücdən istifadə edəcəksənsə, o gücdən istifadə edəndə bunun təbliğatını düzgün qurmayacaqsansa, bunun ətrafında diplomatik addımlar atmayacaqsansa, o da dünyada düzgün başa düşülməyəcək. Ona görə də biz hər iki istiqamətdə ciddi işləməliyik. Həm ordunun daha da güclənməsi və işğalçıya layiqli cavabın verilməsi, torpaqlarımızın azad olunmasına tam hazır olmalıyıq, eyni zamanda dünya ictimaiyyəti, beynəlxalq təşkilatlarla həm diplomatiya sahəsində, həm vətəndaş cəmiyyəti səviyyəsində işlərimizi qurmalıyıq. Bu, yeni təşəbbüs olduğuna görə təbii ki, onun mahiyyətini dünya ictimaiyyətinə addımbaaddım çatdırmaq üçün vaxt lazımdır. Yəqin ki, bu işlərin aparılmasında bizim Qarabağ problemi üzrə tanınmış mütəxəssislər, ekspertlər də öz səylərini əsirgəməyəcəklər.

***- Eldar bəy, Qarabağ münaqişəsi başlayandan Azərbaycanın dəfələrlə sülhə yönəlik addımları olub, ancaq işğalçı tərəf sülh jestinə silahla qarşılıq verib, hətta 1991-ci ildə danışıqlara gedən dövlət xadimlərimizi məhv ediblər. Budəfəki sülh təşəbbüsü nəticə verməsə, nə baş verəcək? Hesab etmək olarmı ki, Azərbaycan işğala son vermək üçün Ermənistana sonuncu dəfə şans verib?***

- Mən hesab edirəm ki, müharibə ehtimalı günü-gündən artır. Aprel döyüşlərindən sonra sizin qəzetinizdə bu mövzunu müzakirə edəndə mən qeyd etmişdim ki, diplomatik canlanma olacaq, ancaq müharibə ehtimalı yenə də təxminən 70-in 30-a nisbətində üstünlük təşkil edir. İndi bu nisbət daha çox dəyişib. Artıq müharibə ehtimalı 90 faizə yaxındır. Dedim kimi, Ermənistan hakimiyyəti artıq öz qərarını verib ki, onlar sülh sazişinə imza atmaq istəmirlər. Torpaqlar Azərbaycana qayıdacaqsa, bunun da hərbi yolla baş verməsini az ziyanlı sayırlar, nəinki danışıqlar yolu ilə olmasını. Ona görə də müharibə ehtimalı daha da artır. Ancaq nəzərə alsaq ki, Ermənistan cəmiyyətində müəyyən parçalanmalar var, bəzi siyasi partiyalar tərəfindən Azərbaycan və Türkiyə ilə barışığa açıq çağırışlar edilir, bu ideya ətrafında seçki blokları yaradılır, vətəndaş cəmiyyətindən Sülh Platformasına qoşulanlar artır. Bütün bunları nəzərə alaraq, biz həm Ermənistan cəmiyyəti, həm də beynəlxalq təşkilatlarla təbliğat və diplomatik işimizi gücləndirməliyik. Dediyim kimi, bu qələbədə həmişə güc amilinin də, həmçinin diplomatik səylərin də, təbliğat işlərinin də öz rolu və payı olur. Ona görə də bu vacib istiqamətlərdə biz öz işlərimizi aparmalıyıq.

❑ **Elşad PAŞASOY**

# “Bizi incidirlər...”

## ANS-ə martın 23-nə qədər vaxt verildi, şirkəti nə gözləyir?

**Zoologiya İnstitutu ANS televiziyasına əmlakının binadan çıxarılması üçün vaxt verib. Şirkət bu ay ərzində öz əmlakını binadan çıxarmalıdır. Modern.az saytı yazır ki, bugünlərdə şirkət rəhbərliyinin binaya daxil olmasına icazə verilməyib. Həmçinin “ANS Müstəqil Yayım və Media” Şirkətinə əmlakını binadan çıxarmaq üçün martın 23-dək vaxt verilib.**

**Fəaliyyəti dayandırılmış ANS Şirkətlər Qrupunun prezidentinin media müşaviri Mais Məmmədov** “Yeni Müsavat”a bildirdi ki, məsələ ilə bağlı detallı məlumata sahib olmasa da, onları çox incidirlər: “Bu işlərlə mən məşğul olmadığım üçün dəqiq məlumata da sahib deyiləm. Ona görə də mətbuatda yayılan informasiya ilə bağlı hər hansı dəqiq fikir söyləyə bilmərəm. Lakin onu qeyd edim ki, Zoologiya İnstitutu bizi çox incidir. Deyir ki, çıxın ərazidən. Bizi incidirlər...”

**“Yeni Müsavat”a danışan ANS-ÇM Yayım və Media Şirkətinin baş direktoru olmuş Sevda Həsənova isə bildirib ki, Zoologiya institutunun ANS-ə vaxt verməsi ilə bağlı onda hər hansı bir rəsmi məlumat yoxdur:**

“Müqaviləyə gəlincə isə qeyd edim ki, icarə müqavilələri hər bir şirkət üzrə ayrı-ayrılıqda olmaqla, ”ANS” və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi arasında bağlanmışdı. Sonuncu müqavilələr 2016-cı ilin mart, aprel aylarında bağlanmışdı. İcarə müqavilələri adətən Əmlak Komitəsi ilə 6 ay müddətinə bağlanılırdı və müddətin bitməsinə 1 ay qalmış müqavilələrin növbəti 6 ay müddətinə uzadılmasına dair müraciət edilirdi. Bu dəfə də o qaydada müqavilə müddətinin bitməsinə 1 ay qalmış müraciət edildi. Lakin komitə tərəfindən bizə nə müqavilənin müddətinin uzadılmasından imtina edilməsinə dair cavab məktubu verildi, nə də müqavilələrin müddətinin uzadılmasına dair razılıq. Amma komitənin icarəyə götürülmüş ərazinin balans sahibi olan AR Milli Elmlər Akademiyasının Zoologiya İnstitutuna ünvanladığı məktuba əsasən demək olar ki, Zoologiya İnstitutu müqavilə müddətinin uzadılmamasının təşəbbüskarıdır".

**S.Həsənova ANS-in arxivlərinin aqibətinin necə olacağı ilə bağlı da danışıb:** "Çəkilmiş televiziya materialları, heç bir halda, heç bir şəraitdə satıla bilməz və satılmayacaq da. Çünki ən azı “ANS” şirkəti hüquqi şəxs kimi fəaliyyətini dayandırmayıb, sadəcə, onun televiziya və radio yayımı üçün lisenziyasının qüvvəsinə xitam verilib. 23 il yerləşdiyimiz binadan çıxarılmağımız barədə danışmaq bütün əməkdaşlarımız, ANS-in tamaşaçıları üçün çox ağırdır. ANS demək olar kı, yarandığı gündən Səbayel rayonu, keçid 1128, məhəllə 504 ünvanında fəaliyyət göstərib. Uzun illər hamı bu ünvanı ANS-in ünvanı kimi tanıyıb".

Qeyd edək ki, Milli Televiziya və Radio Şurası (MTRŞ) 2016-cı il iyulun 18-də “ANS Müstəqil Yayım və Media” Şirkətinin yayımının dayandırılması barədə qərar qəbul edib. MTRŞ öz qərarını Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə Azərbaycan Baş Prokurorluğunun müraciətinə əsasən qəbul etdiyini bildirib. MTRŞ həmçinin ANS-ÇM radiosunun lisenziyasını ləğv edib.

“ANS Müstəqil Yayım və Media” Şirkəti lisenziyasının ləğvi barədə qərarın qüvvədən salınması ilə bağlı məhkəməyə müraciət etsə də, iddia təmin edilməyib.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 53 (6667) 10 mart 2017

# Azərbaycanlıları saxta sənədlə xaricə göndərənlər kimlərdir?




**Son illərdə Azərbaycandan Avropaya mühacir axını sürətlənib. Xeyli sayda heç bir ictimai-siyasi fəallığı olmayan şəxslər də siyasi mühacir kimi Avropaya sığınıblar. Bu haqda mediada dəfələrlə yazılıb, həmçinin "Yeni Müsavat" qəzetində də azərbaycanlıların kütləvi şəkildə xarici ölkələrə getmək istəməsi, bir çoxunun artıq buna nail olması haqda yazılar dərc edilib.**

Maraqlısı odur ki, xaricə getmək istəyənlər çox da çətinlik çəkmirlər. Hansı ki, əslində Azərbaycan vətəndaşlarının sərbəst şəkildə həm viza alması, həm də üz tutduğu ölkədə oturum alması bu qədər sadə bir proses ola bilməz. Amma fakt odur ki, Avropaya qaçan insanlar lazım olan sənədləri müəyyən məbləğ qarşılığında ölkədə asanlıqla əldə edə bilirlər. Bu, ondan xəbər verir ki, Azərbaycanda mühacir biznesi ilə məşğul olan böyük bir şəbəkə var və onlar xaricə getmək istəyənlərə pul qarşılığında "asan xidmət" göstərirlər.

# Avropaya mühacir yollayan cinayətkar şəbəkə haqda sensasion iddialar...

Əcnəbi ölkələrə göndərilən vətəndaşların əksərinin cibindən AXCP-nin vəsiqəsi çıxır; saxta partiya sənədi ilə səs-küysüz mühacirət edən yüzlərlə imkanlı şəxs də var; Azərbaycandan Avropaya uzanan mühacir biznesi ilə bağlı ölkədə həbslər ola bilər

Əslində "Yeni Müsavat" qəzeti hələ 2 il öncə Avropadakı mühacirlərin həyatından reportajlar hazırlayarkən bu şəbəkənin mövcudluğunu üzə çıxarmışdı. Əməkdaşlarımız heyrətamiz faktlar aşkarlamışdı; heç bir ictimai-siyasi fəallığı olmayan, hətta partiya, siyasi blok sözlərinin mənasını bilməyən şəxslər tanınmış müxalifət partiyalarının vəsiqəsi ilə Avropaya gedib orada siyasi oturum alıb, yaşayırlar.

Daha sonra Avropaya saxta sənədlə gedən bir neçə şəxsin orada oturum ala bilməməsi səbəbindən onlara pul qarşılığında saxta arayışlar verən şəxslər və partiyalara qarşı iddialar səsləndirməsi da yaddaşlardan silinməyib.

Bu yaxınlarda isə maraqlı bir hal yaşandı; Müsavat Partiyasının başqanı Arif Hacılı və eks-başqan İsa Qəmbər prokurorluğa izahat verməyə çağırıldılar. Məlum oldu ki, bu nüfuzlu siyasətçiləri mühacirət biznesi ilə bağlı dindiriblər. Müsavat Partiyasının eks-başqanı İsa Qəmbər mediaya açıqlamasında onların da bu iddialar üzrə araşdırmalar aparılıb, saxtakarlıqlar edənlərin üzə çıxarılmasında maraqlı olduqlarını bildirmişdi.

**Redaksiyamıza bu məsələlərə dair ilginc məlumatlar daxil olub. Xəbərin mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın hüquq-mühafizə orqanlarına xeyli sayda mühacir biznesinin qurbanları şikayətlər ediblər. İddiaya görə, onlar bildiriblər ki, müəyyən şəxslər onları xaricə göndərəcəkləri adı ilə 5-10 min dollar civarında pul alıblar, Avropada oturum alacaqlarına söz veriblər. Lakin onların verdikləri sözlər həyata keçməyib. Bu barədə musavat.com-a izahat verən müxalifət partiyalarından birinin funksioneri maraqlı fikir söyləyib. O deyib ki, son vaxtlar Avropada mühacirlərə dövlət və cəmiyyətin təftişçi mövqeyi yaranıb, üstünlük yalnız savaş gedən ərəb ölkələrindən gələnlərə (İraq, Suriya) verilir. Bu səbəbdən də Azərbaycan və onun kimi ölkələrdən gələn sığınmaçıların vəziyyəti çətinləşib:** "Əvvəllər ADP, Müsavat, AXCP-nin arayışı ilə mühacirətə üz tutanların sığınacaq alma ehtimalları 80 faiz idi. İndi bu göstərici 10 faizə düşüb. Azərbaycan hakimiyyəti də bu məsələnin üstünə düşüb və xaricə axını dayandırmaq istəyir. Buna görə də Avropanın müvafiq qurumları ilə Azərbaycan hakimiyyəti arasında anlaşma əldə olunub. Bu anlaşmaya əsasən, son bir ildə Avropaya sığınan qaçqınlara sığınacaq verilməyəcək, onlar qaçqın düşərgələrində saxlanacaq və müəyyən periodlarla Azərbaycana təhvil veriləcək. Azərbaycan hökuməti isə üzərinə götürüb ki, siyasi sığınacaq üçün müraciət edən vətəndaşlarına qarşı heç bir repressiv hərəkət etməyəcək. Bax, prosesin bu nöqtəyə gəlməsi səbəbindən artıq müxalifət partiyalarının arayışları ilə Avropaya üz tutanların siyasi sığınacaq almaları çətinləşib, hətta az qala, mümkünsüz olub..."

Belə olan halda, təbii ki, müxalifət funksionerlərinə lazım olan arayışları almaq üçün müəyyən məbləğ ödəmiş vətəndaşlar şikayətlərdə bulunublar. Odur ki, bu məsələ ilə bağlı hüquq-mühafizə orqanları araşdırmalar aparıblar və hazırda fakt üzrə cinayət işi qaldırılıb, ifadələr alınır.

**Məlumatlı mənbə iddia edir ki, ilkin olaraq mühacir biznesi ilə əsasən AXCP sədri Əli Kərimlinin şəbəkəsində olan şəxslərin məşğul olduqları üzə çıxıb:** "Bu məsələlərlə bağlı İsa Qəmbər və Arif Hacılı prokurorluğa çağırıldılar, amma onlar bu prosesdə günahı ən az olanlar hesab olunur. Düzdür, Müsavat Partiyasının da möhürü olan saxta sənədlə Avropaya gedənlər var. Ancaq onlar çox azdır. Bu prosesdə əsas iştirakçılar AXCP-nin rəhbərliyi və onların ətrafında olan müəyyən bir şəbəkədir. Məsələ beləliklə; hazırda AXCP-nin üzvü olmayan, siyasi proseslərdə heç bir aktivliyi olmayan, kölgədə qalan bir neçə şəxs var ki, onlar bu işdə "dərin dövlət" kimi çalışırlar. Bu kəslərin əsas işi xaricə getmək istəyən müəyyən qədər imkanlı şəxsləri AXCP ilə əlaqələndirmək, onlara arayışlar almaqdır. Hazırda Almaniyada, Hollandiyada xeyli sayda imkanları yaxşı olan azərbaycanlılar siyasi mühacir statusu ilə yerləşiblər. Onlar siyasi mühacir adı ilə getsələr də, dərhal bir neçə xırda şirkət yaradıblar, biznes qurublar və iş görür, pul qazanırlar. Həmin adamların bu ölkələrə gerçək iş adamı kimi getməsi mümkün olmayıb, çünki sahibkar kimi yerləşmək üçün tələb olunan 500 min avro-1 milyon dollar civarında yatırımlar edib sahibkar kimi oturum almaq imkanları olmayıb. Onlar əllərində təxminən 100-200 min avro civarında pulları olan adamlardır ki, 5-10 min xərc çəkib siyasi mühacir kimi Avropaya sığınır və daha sonra orada xırda biznesə başlayırlar".

**Mənbə qeyd edir ki, AXCP rəhbərliyinə yaxın olan və gizlində qalan bir neçə şəxs xaricə getmək istəyən adamları adıçəkilən partiya ilə əlaqələndirir, onlardan 3-5 min manat civarında "haqq" alıb saxta partiya vəsiqəsi verirlər:** "Daha sonra onlara viza alınmasında da kömək edirlər. Çox maraqlıdır ki, həmin adamlar viza verilməsi üzrə "qara bazar"la da əlaqəlidirlər. Çox asanlıqla Şərqi Avropa ölkələrinə viza da düzəldə bilirlər. Bəzən isə bu vizaların saxta olması faktı da aşkarlanıb. Almaniyaya göndərilən şəxslərdən biri *(onun kimliyi də redaksiyamıza bəllidir, lakin müəyyən səbəblərdən yazmaq doğru olmazdı-red.)* Almaniyada saxta viza ilə yaxalanıb. Onu həmin ölkədən dərhal deport ediblər və Azərbaycan hökumətinə sorğu verilib".

**Mənbə qeyd edir ki, mühacir biznesi ilə məşğul olan şəbəkə Azərbaycandan Avropaya xeyli illər öncə mühacirət etmiş bir neçə şəxs tərəfindən koordinasiya olunur:** "Avropadakı əsas fiqurantlardan biri vaxtilə "Azadlıq" qəzetində çalışmış şəxsdir. Şəbəkə olduqca mürəkkəb qurulub. Belə ki, saxta vəsiqə üçün pulun sonda hara çatdığını nə pulu verən şəxs bilir, nə də alan ilk adam. Ortada təxminən 6-7 adamın iştirakçılığı var, birincidən sonuncuya kimi iştirakçılar müəyyən məbləğlər üzərindən götürülməklə həmin pulu "əridirlər". İndi belə bir durum yaranıb; onlarldan şəxsdən Azərbaycanda pul alınıb, yaxud onlar xarici ölkədə yaşayan bir şəxsin hesabına tələb olunan vəsaiti köçürüblər. Lakin onlara saxta vəsiqə verilsə də, viza alınmasında yardım göstərilməyib. Şəxs aldadıldığını bildikdə pulunu geri tələb edib, aşağıdakı ələ keçən adamlar pulu özlərindən sonra verdikləri adamın adını çəkiblər. İz azdırılması üçün pulun birmənalı olaraq Avropadakı şəxsə göndərildiyi qeyd olunur. Avropadakı bəlli adama çıxış əldə edən zərərçəkmişə isə həmin şəxs "get, hara şikayət edirsən elə", deyə cavab verir. Ortada vasitəçilik edən bir neçə şəxs də mövcuddur ki, ilk əldən pul alıblar, yaxud hesablarına köçürülüb, sonra transfer edilib, onlar indi əldə qalıblar və hərəsindən 30-40 min dollar pul tələbi var".

**Qaynaq qeyd edir ki, hökumət bu məsələlərlə bağlı ciddi araşdırmalara başlayıb:** "İlkin olaraq bəlli olan odur ki, AXCP funksionerləri ilə yanaşı bir neçə QHT rəhbəri də bu prosesin içərisindədir və saxta vəsiqələrin, arayışlarının əksəri AXCP-yə aiddir. Bir neçə nəfərə isə "Azadlıq" qəzetinin guya operatoru, ştatdankənar müxbiri olmasına dair arayışlar da verilib, mühacirətə əsas verən sənəd kimi. Güman edilir ki, saxta viza alınmasında bu mühacir biznesi şəbəkəsinin üzvləri ilə xırda məmurlar da əlaqəli olublar. Məsələ ondadır ki, məlum saxtakarlıqlarla bağlı bir neçə Avropa ölkəsinin hüquq-mühafizə orqanları Azərbaycan hökumətinə müraciətlər edərək, bu məsələnin araşdırılmasını istəyiblər. Hələ ötən ilin payızından bu məsələlərin araşdırılmasına başlanılıb və güman ki, proseslərin yekununda biz sensasiyalı həbslərin də şahidi olacağıq. Bir maraqlı fakt da odur ki, bu cinayətkar şəbəkəni ifşa etmiş nüfuzlu bir dövlət adamına qarşı bəzi media orqanlarında hücum xarakterli yazılar dərc olunur. Həmin media orqanları da AXCP-yə yaxın olan şəxslər tərəfindən idarə olunur".

❑ T.ƏHMƏDLİ

---




# Milli Qəhrəman Çingiz Qurbanovun anım mərasimi keçirildi

**DTX rəisi Mədət Quliyev:** "Çingiz Qurbanov dörd erməni əsgərini öldürdü və daha üçünü yaraladı"



**Dekabrın 29-da Ermənistan ordusunun diversiya qrupunun təxribatının qarşısını alarkən şəhid olmuş Milli Qəhrəman Çingiz Qurbanovun «Heydər» Məscidində anım mərasimi keçirilib.**

Virtualaz.org xəbər verir ki, mərasimdə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev, Şeyxülislam Hacı Allahşükür Paşazadə, Müdafiə Nazirliyinin rəhbərliyi, deputatlar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən Mədət Quliyev bildirib ki, anım mərasimi dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə təşkil olunub.

"Bu gün bizim üçün ağır, həm də şərəfli gündür. Biz əsgər Çingiz Qurbanovu itirdik. Amma o, faşistləri məhv edərək həlak oldu. Çingiz Qurbanov dörd erməni əsgərini öldürdü və daha üçünü yaraladı. Çingiz cəmi 20 il yaşadı, amma onun bu ömrü ləyaqətli ömür idi".

Bunu hərbi qulluqçu Çingiz Qurbanovun anım mərasimində çıxış edən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri, DTX-nın rəisi Mədət Quliyev bildirib.

**Mədət Quliyev Çingiz Qurbanovun valideynlərinə belə ləyaqətli oğul tərbiyə etdiklərinə görə minnətdarlığını bildirib.**

"Çingizin fenomeni nədədir? O, ləyaqətli ailədə böyüyüb və onun valideynləri bütün Azərbaycanın fəxr edəcəyi əsl kişi tərbiyə ediblər. Mən bu gün Azərbaycana və Prezidentə sədaqətinə görə Çingizin atasına təşəkkür edirəm. Bəli, ona da, bizim hamımıza olduğu kimi ağırdır, amma onun oğlu faşistləri və işğalçıları məhv edərək öz şəxsi həyatını bizim firavanlığımıza görə qurban verib", - deyə Mədət Quliyev bildirib.

DTX rəisi həmçinin qeyd edib ki, Azərbaycan böyük tarixi yol keçən müstəqil dövlətdir.

"Azərbaycan böyük tarixi yol keçib. Ölkə 1991-ci ildə müstəqillik əldə edib. Amma həqiqi müstəqil dövləti biz ümummilli lider Heydər Əliyevin sayəsində 1993-cü ildə qurduq. Onun həyata keçirdiyi siyasət sayəsində Azərbaycan böyük inkişafı yolu keçdi", - deyə o qeyd edib.



# Şeyxin 7 kollec sirri açıldı

## Kimlər dini kolleclərə qəbul oluna biləcək? - rəsmi açıqlama

**Azərbaycanda dini ayinləri yalnız ölkədə təhsil almış din xadimlərinin həyata keçirə bilməsi üçün peşəkar kadrların hazırlanması yönündə işlər aparılır. Artıq bugünlərdə 7 yeni İslam kolleci Dini Qurumlarla İş üzrə Dövlət Komitiəsində qeydiyyatdan keçib, şəhadətnamə verilib. Həmin kolleclər bunlardır: Heydər İslam Kolleci, Zaqatala İslam Kolleci, Gəncə İslam Kolleci, Lənkəran İslam Kolleci, Quba İslam Kolleci, Nardaran İslam Kolleci və Bibiheybət İslam Kolleci.**

Bundan əlavə, bildirilir ki, bir müddət əvvəl qeydiyyatı ləğv olunan Şəbnəm qızlar mədrəsəsi, Zaqataladakı Əliabad mədrəsəsi və Şəki İslam mədrəsəsi də bu il mart ayının sonuna kimi kollec kimi qeydiyyatdan keçəcək. Bundan sonra Qafqaz Müsəlmanları İdarəsi tərəfindən kolleclərin fəaliyyəti təşkil ediləcək. Bununla bərabər ortalığa xeyli suallar çıxıb, hansı ki, hələ bu haqda nə QMİ, nə də DQİDK tərəfindən açıqlama verilməyib. Məsələn, kolleclərə qəbulu Dövlət İmtahan Mərkəzi, yoxsa QMİ aparacaq? Qəbul imtahanı və ya müsabiqə yolu ilə keçiriləcək? İldə neçə tələbə kollecdə təhsil ala biləcək və sairə. Suallarımıza cavab almaq üçün QMİ ilə əlaqə saxladıq.

**Qurumun Mərkəzi Aparat Sisteminin rəhbəri Simran Həsənovun məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verib:** "Bütövlükdə bu kolleclər ölkəmizdə orta ixtisaslı dini kadrların hazırlanması ilə məşğul olacaq. Kolleclərə qəbul QMİ tərəfindən yaradılan komissiya tərəfindən həyata keçiriləcək. Komissiyanın tərkibinə təhsil mütəxəssisləri və dini qurumların nümayəndələri daxildir. İmtahanların test və ya müsabiqə yolu ilə həyata keçirilməsi barədə yaxın günlərdə məlumat veriləcək". Qurum rəsmisi kollecə qəbul olunmaq istəyənlərin qarşısında xüsusi tələblərin də qoyulacağını bildirdi: "İslam dininə, şəriətinə, əxlaqına uyğun həyat tərzi keçirən, 11-ci sinfi bitirən, tam orta təhsilli insanlar kollecə daxil ola biləcək. Bütün hallarda onların dini hazırlıq səviyyələrinə önəm veriləcək". **Simran Həsənov təhsilin neçə illik olacağı barədə də danışıb:** "Hələ ki nizamnamədə kolleclərin təhsil müddəti 4 illik nəzərdə tutulur. Təhsil müddətində tələbələrə dini və dünyəvi predmetlər tədris olunacaq. İlkin dövrlərdə 25-30 tələbənin qəbulu nəzərdə tutulub. Gələcəkdə kolleclərin maddi-texniki bazası gücləndirildikdən sonra qəbul olunacaq tələbələrin də sayı artırılacaq".

❑ **Xalidə GƏRAY**

# Xarici dövlət borcumuz açıqlandı - adambaşına 738 dollar...

**Dövlət zəmanəti ilə verilmiş xarici borcun qalıq məbləği borcalan təşkilatların təqdim etdiyi hesabat məlumatlarına əsasən 2017-ci il yanvarın 1-nə 6 913,2 mln. dollar ekvivalentində olub. Adambaşına düşən xarici dövlət borcu 2017-ci il 1 yanvar tarixinə 704,7 ABŞ dolları təşkil edib.**

"Report" bu barədə hökumətin illik hesabatına istinadən xəbər verir. 2017-ci il 1 yanvar tarixinədək imzalanan sazişlər üzrə cəlb olunması nəzərdə tutulan kreditlərin ümumi məbləğinin 2016-cı ilin ümumi daxili məhsuluna nisbəti 32,3%-ə, 2017-ci il 1 yanvar tarixinə istifadə edilmiş və xarici dövlət borcu hesab edilən kreditlərin məbləğinin 2016-cı ilin ümumi daxili məhsuluna nisbəti 20,4%-ə bərabər olub. Hesabata əsasənz xarici dövlət borcu hesab edilən şərti öhdəliklərin məbləği 2017-ci il 1 yanvar tarixinə 406,2 mln. ABŞ dollarına bərabər olub. Qeyd edək ki, 1 yanvar 2016-cı il tarixinə Azərbaycanın xarici dövlət borcu 6,894.3 mln. ABŞ dolları (10,751.0 mln. manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 19.8% təşkil edib. Bu borca hökumətin birbaşa öhdəlikləri və dövlət zəmanəti ilə cəlb edilmiş kreditlər üzrə şərti öhdəliklər daxil edilib. Nəticədə adambaşına xarici dövlət borcu 737,2 dollar səviyyəsində olub.

# Artur Rasi-zadəni əvəz edəcək şəxs kimdir?

## Bayramdan sonra yeni baş nazirin, ikinci və üçüncü vitse-prezidentlərin təyinatı ola bilər

**Birinci-vitse prezident təyinatından sonra ikinci və üçüncü vitse-prezidentlərin, həmçinin yeni baş nazirin dəyişdiriləcəyi barədə müzakirələr gedir, müxtəlif ehtimallar irəli sürülür. Xüsusilə qeyd edilir ki, Mehriban Əliyevanın birinci vitse-prezident təyinatından sonra yeni iqtisadi komandanın formalaşmasına zərurət yaranıb.**

Bu isə ikinci və üçüncü vitse-prezidentlərin, həmçinin baş nazirin həmin meyarlara cavab verəcək şəxslər olmasını da zəruri edir. Martın 17-də Nazirlər Kabinetinin Milli Məclisdə illik hesabatı veriləcək. Hesabatı baş nazir Artur Rasi-zadənin verəcəyi deyilir. Yayılan xəbərlərə görə, bu, hörmətli Artur Rasi-zadənin baş nazir kimi sonuncu hesabatı olacaq. Hesabat qəbul olunduqdan az sonra Artur müəllim yüksək səviyyədə, təltiflər edilməklə fəxri təqaüdə yola salınacaq. Rasi-zadənin özünün xahiş-ərizəsi ilə işdən çıxarılacağı da yayılan məlumatlar sırasındadır. Artıq baş nazirin belə bir ərizəni yazdığı da iddia edilir. Onun yerinə kimin təyin olunacağını isə şübhəsiz ki, ən dəqiq bilən ölkə prezidentidir. İctimaiyyət arasında və mediada sadəcə ehtimallar irəli sürülür. Məsələn, yayılan xəbərlərdən birində deyilir ki, Azərbaycanın növbəti baş nazirinin hazırkı ədliyyə naziri Fikrət Məmmədov və ya səhiyyə naziri Oqtay Şirəliyev olması istisna deyil. Hər iki şəxs uzun müddətdir nazirdir, siyasi iddiaları ilə seçilən fiqurlar deyillər. İkinci və üçüncü vitse-prezidentlərin də mart ayından sonra təyin ediləcəyi barədə xəbərlər yayılıb. Məlumatlarda deyilir ki, bu vəzifələrə təyinatlarda sürpriz isimlər yer ala bilər. . Bu barədə VİP sədri Əli Əliyev özünün proqnozlarını bizimlə bölüşüb. Onun sözlərinə görə, birinci vitse-prezidentin təyinatı ölkədə siyasi hərəkətlənmə üçün ciddi stimul olacaq. Diqqəti daxa çox makromiqyasda baş verəcək amillərə konsentrasiya etmək düzgün olar. Təbii ki,



iqtidar çalışacaq ki, növbəti vitse-prezidentlərin təyinatında, xüsusən də təqaüdə göndərilməyə hazırlanan baş nazir Rasi-zadənin kreslosuna təyinat zamanı bəzi daxili faktorları nəzərə alsın: "Ehtimal edirəm ki, vitse-prezidentlərin seçimi regional dəngənin qorunması ilə yanaşı, həm də Dağlıq Qarabağ probleminin çözülməsi üçün də istifadə edilə bilər. Hipotetik olsa da, münaqişənin bitmə şərti kimi Dağlıq Qarabağ bölgəsinin təmsilçisinin bu statusa təyinatı nəzərdə tutulsun. O zaman müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının da Ali Məclis sədri bu posta gətirilə bilər. Hesab edirəm ki, hakimiyyətdə aparıcı şəxslərdən kimsə ya baş nazir, ya da kurasiyası əhəmiyyətli olan vitse-prezident postuna gətirilə bilər".

❑ **Etibar SEYİDAĞA**

SOCAR

# "Petkim"dəki səhmlərini qazanmaq üçün satır-ekspert

## İlham Şaban: "Səhmlərini satması o demək deyil ki, onun hansısa problemi var"

**"SOCAR Turkey Enerji A.S." Türkiyənin "Petkim" neft-kimya kompleksindəki payının daha bir hissəsini satmağı planlaşdırır. Bu barədə Türkiyənin İctimaiyyəti Məlumatlandırma İdarəsindən məlumat verilib. SOCAR-ın nəzarətində qalan 15,2 milyon ədəd səhmin bir hissəsinin satışı mart ayı ərzində baş tutacaq. Xatırladaq ki, "SOCAR Turkey Enerji" 2016-cı il oktyabrın sonunda hər birinin qiyməti 4,35 türk lirəsi olmaqla, 35 milyon səhmini satmışdı. Bəs görəsən, SOCAR-ın səhmlərini satmasının səbəbi nədir?**



Bu sualı cavablandıran **Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** bildirdi ki, SOCAR mütəmadi şəkildə öz səhmlərini satışa çıxarır və gəlir gətirən proseslərdən biridir: "Burada məqsəd əlavə gəlir qazanmaqdır. Əgər səhmlər birjada açıq satılırsa və SOCAR da burada paya malikdirsə, onların məqsədi budur ki, səhmlər daim bahalaşsın və satarkən daha çox gəlir əldə etsinlər. Buradan gələn gəliri isə müxtəlif məqsədlər üçün istifadə etsinlər. Dünyada bütün şirkətlərin təcrübəsində bu var. SOCAR-ın səhmlərini satması o demək deyil ki, onun hansısa problem var və ona görə oradakı səhmlərdən satır. İstənilən şirkət əgər hansısa səhmlərə maliyyə qoyursa, o maliyyədən daim yararlanmalıdır".

**Ekspertin sözlərinə görə, Azərbaycanın daxili bazarında bu cür hallar çox olmadığı üçün səhmlərin alqı-satqı prosesi, ondan yararlanmaq, şirkətlərin nəzarət paketini əldə etmək qəribə görünür:** "Səhmləri alarkən siz şirkətin müəyyən faizlə nəzarət paketini əldə edirsiniz. Lakin bu o demək deyil ki, hər zaman sizin nəzarət paketiniz dəyişməz olaraq qalacaq. Əgər siz şirkətin 60 faiz nəzarət paketini almısınızsa, bu, gələcəkdə azala da bilər, 25 faiz də ola bilər. Əgər qazanc gətirəcəksə, həmin nəzarət paketinin 30 faizini də sata bilərsiniz. Önəmli olan mənfəətin əldə edilməsidir. Əgər siz səhmləri 100 dollara almısınızsa, sonra 120 dollar olubsa, satarkən mənfəət əldə edirsiniz. SOCAR da hazırda belə bir siyasət yürüdür. Onların uduzacağı heç nə yoxdur. SOCAR səhmləri artdıqca periodik olaraq bazara çıxaracaq".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 53 (6667) 10 mart 2017

**I Avropa oyunları zamanı Bakıda avtobus qəzası nəticəsində yaralanan avstriyalı idmançı Vanessa Şahinoviçin ailəsi Azərbaycanın təklif etdiyi təzminatı qəbul etməyib. Yerli "Kurier" qəzetinə müsahibə verən idmançının anası Azra Şahinoviç hələ də vəd olunan təzminatı ala bilmədiklərini deyib. "Onun 12-ci döş fəqərəsi sınıb və artıq bir ildən çoxdur ki, intensiv terapiya kursu keçir. Qəza baş verən kimi bir neçə milyon avro məbləğində təzminat vəd edilsə də, tezliklə unutdular" deyə, idmançının anası əlavə edib.**



# Eldar Mahmudova görə Azərbaycandan bir neçə milyon avro tələb olunur

## "Atletlər kəndi"ndə məlum qəzada yaralanan avstriyalı idmançı təzminat davası açıb; sabiq milli təhlükəsizlik naziri yaxın qohumunu I Avropa Oyunlarından əvvəl necə məsul vəzifəyə yerləşdirib?



Azra Şahinoviçin sözlərinə görə, qəzadan sonra Azərbaycanda onların vəkilinə 1,8 milyon avro təzminat ödəniləcəyi vəd olunub. Bu müddət ərzində isə ailəyə yalnız Avstriya Olimpiya Komitəsindən 600 min avro sığorta haqqı ödənilib. O məbləğin 100 min avrosu Vanessanın müalicəsinə sərf olunub. Digər məbləğə isə torpaq sahəsi alıb və mülk tikintisi üçün kredit götürüblər. "Mən bilsəydim ki, təzminat ödənilməyəcək, məbləğin hamısını qızımın müalicəsinə sərf edərdim", deyə, Azra Şahinoviç əlavə edib. Qəzet hadisə ilə bağlı Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilovla əlaqə saxlayıb. Səfirin sözlərinə görə, idmançının ailəsinə 1 milyon avro təzminat təklif olunub. Lakin onlar bu məbləğin azlığını bəhanə edərək qəbul etməyiblər. Səfir əlavə edib ki, zərərçəkənlə təzminatın ödənilməsi ilə bağlı danışıqlar hələ də davam edir.

Yada salaq ki, qəzadan sonra Azərbaycan hakimiyyəti avstriyalı idmançının bütün müalicə xərclərini öz üzərinə götürüb. Prezident İlham Əliyev Venessanın Vyanaya çatdırılması üçün öz şəxsi təyyarəsini ayırıb. Venessanın ailəsi isə reabilitasiya xərcləri üçün təzminat tələb edir. İdmançının vəkili qəzanı törədən sürücünün çalışdığı nəqliyyat şirkətini məhkəməyə verib" deyə, məqalədə qeyd edilib.

İndiyədək I Avropa Oyunlarındakı məlum qəzada "Eldar Mahmudov izi" haqda mətbuatda kifayət qədər yazılar dərc olunub. "Atletlər kəndi"ndə baş vermiş xoşagəlməz olayın - avtobusun 3 xarici atletin üzərindən keçməsi işi üzrə istintaq çox məxfi şəkildə aparılsa da, məhkəmə araşdırmaları bəzi detalları üzə çıxara bilmişdi. Qəzadan dərhal sonra olayın sosial şəbəkələrdə yayılan videosuna baxmış hər kəs sürücünün bu hadisəni bilərəkdən törətdiyinə əminliyini ifadə edirdi. Hər kəs deyirdi ki, bu, qəsddir. Çünki sürücünün düz yolda getdiyi zaman səhvə yol verib belə bir qəza törətməsi inandırıcı görünmürdü. Bu arqumentləri inandırıcı edən bəzi faktlar da vardı. Oyunlar öncəsi ölkədə xoşagəlməz olayın baş verəcəyi gözləntisi, narahatlıq ab-havası hiss edilirdi. Hüquq-mühafizə orqanlarının xüsusi rejimdə çalışması, nəqliyyatın hərəkətinə tətbiq olunan məhdudiyyətlər bu gözləntilərə bir qədər də güc vermiş olurdu. Ölkə boyu, xüsusilə Bakı şəhərində görünməmiş təhlükəsizlik tədbirləri həyata keçirilmişdi. Belə bir vəziyyətdə, oyunlara 1 gün qalmış "Atletlər kəndi"nin nəqliyyat deposunda avtobus düz yoldan çıxaraq atletlərin üzərindən keçdi. Sonradan məlumat yayıldı ki, sürücü Vahid Əhmədov əvvəllər qəsdən adam öldürməyə görə həbsdə olub. Məhkəmə ona 10 illik azadlıqdan məhrumetmə cəzası çıxarıb. Bu müddətin bitməsinə 5 il qalmış V.Əhmədov məhkəmə qərarı ilə azad olunub. Həbs olunan V.Əhmədovun oğlu Orxan Əhmədov qəzadan sonra mətbuata açıqlama verərək deyib ki, atasının qəzanı qəsdən törətməsi haqda məlumatlar yalandır. Atasının idarə etdiyi avtobusun əyləc sistemindəki problem üzündən belə bir qəza meydana gəlib. **"Avtobusun əyləc sistemində problem olub və sürücü problemi aradan qaldırmağa çalışarkən diqqəti yoldan yayınıb. Sükanı yığışdırmaq mümkün olmadığından avtobusu saxlaya bilməyib və nəticədə qəza baş verib"** deyə, sürücünün oğlu bildirmişdi. Qəzadan sonra yaranmış suallardan biri də sürücülərin seçilməsi, sürücülük qabiliyyətlərinin yoxlanılması ilə bağlı idi. Səriştəsiz sürücü belə bir mötəbər oyunlar zamanı sükan arxasına necə keçə bilmişdi?

Həmin vaxt belə məlumat yayılmışdı ki, oyunlardan 2 ay öncə "Bakı Sərnişin Nəqliyyatı" MMC-nin rəisi vəzifəsindən azad olunub, onun yerinə isə Elimxan Hacıyev təyin alıb. E.Hacıyevin o dövrdə milli təhlükəsizlik naziri olan Eldar Mahmudovun yaxın qohumu, bibisi oğlu olduğu deyilirdi. Bu təyinata qədər E.Hacıyev Nəsimi Su Kanalizasiya İdarəsinin rəisi olub. Onun təyinatından sonra oyunlar zamanı sərnişin daşıyacaq avtobusların sürücülərinin seçilməsinə, onların avtobioqrafiyalarının yoxlanılmasına başlanıb. Sürücülərin təlim keçməsi üçün büdcədən 1 milyon manat vəsait ayrılıb. Lakin hansısa səbəbdən E.Mahmudovun bibisi oğlu Vəli Əhmədovun bioqrafiyası lazımi səviyyədə nəzərdən keçirilməyib. Bu məlumatlar onu deməyə əsas verir ki, E.Mahmudovun nazir kimi ona olan etimadı itirməsində bu cür təyinatlar rol oynayıb. Qəzadan sonra işdən çıxarılanlar sırasında E.Hacıyev də olub. Amma E.Mahmudov onu da məsuliyyətdən kənar saxlamağı bacarıb. İndi isə həmin günlərdə baş verən qəzaya görə ölkəmizdən milyonlarla avro təzminat tələb olunur. E.Mahmudov nazir deyil, amma ona görə Azərbaycan büdcəsindən bir neçə milyon avro xərcləməli olacaq. Yada salaq ki, 2015-ci il iyunun 11-də baş vermiş olayla bağlı Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə məlumatında qeyd olunurdu ki, iyun ayının 11-də, saat 8.30-da, I Avropa Oyunlarının "Atletlər kəndi"nin nəqliyyat deposunda, "Bakubus" Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus avtobus hərəkət zolağından çıxaraq piyadalar üçün səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvləri Vanessa Sahinoviça və Luna Pacera bədən xəsarətləri yetirib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Dərsə gedən beş uşaq...



**Xalid KAZIMLI**

**Bu hadisəyə statistika prizmasından yanaşsaq, bir kimsənin tükü tərpənməyəcək. Qəza olub, insanlar ölüb. Olan şeydir. Bu ölkədə ildə 1000 nəfərdən artıq adam yol qəzasında ölür.**

Ancaq biz məsələyə insan faciəsi baxımından yanaşaq. Öz əzizlərimizi yol qəzasında ölənlərin yerinə qoyaq, sonra baxaq. Görək, ona sakit, əsəbsiz, duyğusal ovqata köklənmədən yanaşa bilirikmi.

Söhbət dərsə gedən beş tələbənin vaxtsız və faciəvi ölümündən gedir.

Nə yaşları vardı? Çox az. 18-20. Hələ ana qoynundan yeni ayrılmışdılar.

Daha dünən onlar bayram keçirmişdilər, qızlar təbrik almışdı, oğlanlar qadın yaxınlarını təbrik etmişdilər.

Martın 9-da isə dərsə gedirdilər. Arzuları vardı. Oxuyub məzun olacaqdılar, bir işə düzələcək, özlərinə gün-güzəran düzəltməyə başlayacaqdılar, ailə quracaqdılar.

Bu gün onlar, bu gənc insanlar artıq aramızda yoxdurlar. Bir talesiz qəza onları həyatdan vaxtsız qopardı.

Bir talesiz qəza onların valideynlərinə, qohum-əqrəbalarına, keçmiş və indiki məktəb yoldaşlarına, sevənlərinə dağ çəkdi.

Bir valideyn düşünün, 18-20 il boyunca min bir əziyyətlə, boyunu sevə-sevə övlad böyüdür, təhsil alması, adam olması üçün hər əzaba qatlaşır, uşaq ali məktəbə daxil olur, bunun sevincini yaşayıb bitirməmiş, onun qara haşiyəyə alınmış şəkli ilə üz-üzə qalır.

Bundan böyük faciə yoxdur.

Heç kəs deməsin ki, bu alın yazısıdır, o gənclərin də qisməti, taleyi beləymiş.

Bu, heç də elə deyil.

Bu cür vaxtsız, faciəvi ölüm müharibədə olan, döyüş əməliyyatlarında iştirak edənlərin qismətinə çıxsa belə, bunu taleyin işi sanmaq olmaz. Çünki adam elə bir yerdədir ki, hər an ölümlə üz-üzədir.

Bu baxımdan səhər ertə ictimai nəqliyyatla 25-30 kilometrlik yolu qət edib dərsə, işə gedənlərin qismətində heç cür ölüm ola bilməz. Olmamalıdır. Yoldur, minlərlə insan gedir, bir az ehtiyatlı olanda hamı mənzil başına salamat çatır.

Yol əcəlin pusqu qurması üçün deyil.

Yol cəbhə xətti, səngər deyil. Yol getmək, mənzil başına çatmaq üçündür və hamının istifadə etdiyi bir yerdir.

Yol bu qədər təhlükəli olsaydı, hər gün yola çıxan milyonlarla adam qəzalarda həlak olardı.

Ancaq yol-hərəkət qaydaları deyilən bir şey var, yol-hərəkət iştirakçıları ona riayət edəndə faciəvi qəzalar olmur.

Avropa ölkələrində sürücülər də, piyadalar da yol-hərəkət qaydalarına diqqətlə əməl edirlər. Ona görə də orada yol qəzasında ölənlərin sayı bizim tipli ölkələrdə olduğundan 20 dəfə azdır.

Ən azı 20 dəfə... Bu o deməkdir ki, Azərbaycan boyda olan Avropa ölkəsində ildə yol qəzalarında 35-40 adam ölürsə, bizdə ölü sayı 1000-i keçir. Hətta arada 1200-ə çatdığı da olub.

Bu, ondan irəli gəlir ki, sürücülər məsuliyyətsizdir, intizamsızdır, qayda-qanunlara məhəl qoymurlar, lazımınca cəzalandırılmırlar.

Elə bugünlərdə Dövlət Yol Polisindən belə bir məlumat yayılmışdı ki, sükan arxasında içkili vəziyyətdə 2600 şəxs saxlanılıb. Bu, 2600 potensial qatil deməkdir.

Bu, həm də o deməkdir ki, 2600 sürücü içkili vəziyyətdə saxlanılmaqdan, ciddi cəzaya məruz qalacaqlarından qorxmurlar.

Yəqin ki, bu, aysberqin görünən tərəfidir, vəzifəsinə, əlaqələrinə, puluna güvənərək sərxoş halda avtomobil idarə edənlər qat-qat çoxdur.

Bu cür durumların yaranmaması üçün çoxdan bəlli, işlək düsturlar var. Burada çıxış yolu heç də yol-hərəkət iştirakçılarına münasibətdə mövcud olan qayda-qanunları sərtləşdirmək deyil. Əsas məsələ mövcud qanunların tətbiqində güzəştsiz olmaqdır.

Müvafiq qanunvericilik sənədləri mükəmməl olmasa da, ona riayət ediləcəyi təqdirdə, Avropa ölkələrindəki vəziyyəti yaratmaq mümkündür.

Ancaq nə yazıq ki, illərdir avtobus sürücülərinin işıqforun qırmızı işığında keçmələrinin, ötüşmələrinin, sürət həddini aşmalarının qarşısını almaq olmur.

Onlar da, taksi sürücüləri də özlərini yolların sahibi, ağası kimi aparırlar, hesab edirlər ki, hər qarışını tanıdıqları, gün ərzində 7-8 saat o baş-bu başa getdikləri yol məhz onlarındır və onlar burada istədikləri hərəkəti edə bilərlər.

Gün gəlir, situasiya fərqli olur və ağır nəticələr verir - dərsə gedən beş uşaq birlikdə həyatını itirir və bu, ölkədə matəm havası yaradır.

YENİ MÜSAVAT
N 53 (6667) 10 mart 2017



# Sumqayıta getmək

Zamin HACI
zaminhaci@gmail.com

**Keçən yazımda “Azəriqaz”dan xahiş eləmişdim qazın kəsilməsini hansısa alqoritmə, qaydaya salsınlar, işimizi biləк. Dünən idarədən mənimlə əlaqə saxladılar, bildirdilər ki, sizin müraciətiniz rəhbərlik tərəfindən ciddi müzakirə olunmuş, qəti qərar verilmişdir, bu vacib vətəndaş təşəbbüsünə görə sizə dövlətimiz adından minnətdarıq, söz veririk növbəti qaz durbası çəkiləndə ona “Media durbası” fəxri adı verək. Qayda isə indən belə bu cür olacaqdır:**

Hər həftənin bazar günü Gürcüstanda erməni kilsələrinə güclü təzyiqdə qaz vurulmalıdır ki, Allaha dua edə bilsinlər, o üzdən həmin günlər Binəqədi-Yalama istiqamətində təzyiq bir neçə barometr aşağı düşəcəkdir.

Birinci günlər ağır gündür, günorta radələri yüngül qazın verilməsi azalacaq.

İkinci günlər səhər yeməyi hazırlamağa qaz veriləcək. Vacibdir ki, nahar və şam yeməyi üçün də hazırlıq görülsün, termoslarda saxlansın.

Çərşənbə Novruza düşür, tonqal qalayın.

Cümə pakdır, çimmək üçün hamamı qazla yandırmaq müstəhəbdir. Ancaq ki, məkruh da sayılır. Gecə saat 1-də yarım saat qaz veriləcək. Ailə üzvlərindən kim sabunlu qalsa ona “Azəriqaz”ın smart dəsmalı hədiyyə edilir - yerli qaz kontoruna müraciət edin.

Nə deyim, bu cavabdan çox sevindim. Kaş hər yerdə, bütün dövlət idarələrində vətəndaşa belənçik münasibət olsun. Buna görə “Azəriqaz”ın müdirinə BDU-nun “jurfak”ında məskunlaşan qaçqınlar adından minnətdarlığımı bildirirəm.

Misal üçün, dövlət qayğısının bariz nümunəsi Naxçıvandadır. Orda Vasif müəllimin atalıq qayğısı bütün diriləri əhatə etmişdir, indi isə ölülər rahat olunur. Qəbiristanlıqlar elə gözəl abadlaşır ki, adam yıxılıb ölmək istəyir. İndi növbəti addımda təbiətin tənzimlənməsi olmalıdır. Kiməsə tapşıracaq, Günəş əyri gedəndə marşrutunu düzəldəcək. Ayın qabağını bulud örtəndə buludu qovacaqlar. Nuh peyğəmbərin qəbrini tapıb abadlaşdıran insandan möcüzələr gözləməyə haqqımız vardır.

Nuh dedim, yadıma düşdü - keçmiş nəqliyyat naziri Ziya müəllimin işdən çıxandan bəri Quran oxuyub əsl müsəlman olmağa başlaması gəzən xəbərlər arasındadır. Düzdür, bəziləri bunu Abdulla Şaiqin məşhur poeması ilə əlaqələndirir, lakin biz razı deyilik. Ziya müəllimin Allah yolunu tutması iş vaxtından bəlli idi. Nəqliyyat müfəttişləri taksi sürücülərini həmişə dini metodlarla - daşqalaq, şaqqalamaq, “gözə-göz, pravaya lom” kimi üsullarla cəzalandırırdı. Kim bilir, bəlkə də dünən Bakı-Sumqayıt yolundakı ağır yol qəzası Ziya müəllimin “Quran açması” nəticəsində olub?

Sözgəlişi, o gənclərin taleyi də çox faciəli oldu. Sumqayıt Dövlət Universitetində oxumağa gedərkən həlak olmaq yəhudi doğulub 1944-cü ilin Berlininə düşmək kimi bir haldır. Özü də 4 ildə 64 dəfə cərimələnən, sürücülük vəsiqəsini hansısa rüşvətxordan almış axmaq birisinin suçu üzündən ölməsən... Bizim həyatımız mənasızlaşdığı kimi, ölümümüz də mənasızlaşmağa başlayıb. Hamısı hökumətin atalıq qayğısının sayəsindədir.

Bax elə həmin Sumqayıtın “abadlaşmasına” (oxu: hasarlaşmasına) son illər 50 milyon manata yaxın dövlət pulu ayrılıb. İnsanlar isə işsizlikdən əziyyət çəkirlər. Belə yerdə bulvara 100 kvadratmetr müasir asfalt örtüyü salınması və 55 ədəd avanqard işıq dirəkləri basdırılması kimə lazımdır? Yenə o dəli tort bişirirdi, indi tamam aclıqdır.

Fikir vermisinizsə, Bakıda “Sumqayıta getmək” ümumiyyətlə dilənçiliyin simvollarından birinə dönübdür. Küçədə, yollarda cürbəcür adamlar sənin qarşını kəsib belə deyirlər: “Qardaş, Sumqayıta getməliyəm, ancaq 20 qəpiyim (30, 40, 50 qəpik, hətta 1 manat da ola bilər - müraciət edilən adamdan, onun geyim-kecimindən asılıdır - Z.H.) çatmır, kömək elə”. Hətta “Neftçilər” metrosunun yanında məndən Sumqayıta getməyə pul istəyiblər! Yəni burada yerin dəxli yoxdur. Ola bilər Qazaxda, Füzulidə, Astarada da belə desinlər.

# Cenevrədə Azərbaycanla bağlı sərt müzakirələrə Bakıdan reaksiyalar

**Bu ilin əvvəllərindən başlayaraq, beynəlxalq qurumların Azərbaycan iqtidarına qarşı təzyiqlərinin artdığı müşahidə olunur. Bu, həmin qurumların hazırladıqları son hesabatlarda və ölkəmizdə insan haqlarının son durumu ilə əlaqədar verdikləri bəyanatlarda da aşkar görünür.**



Son olaraq, martın 7-də Cenevrədə Birləşmiş Millətlər Təşkilatının (BMT) İnsan Hüquqları Şurasının sessiyasında Azərbaycandakı vəziyyət müzakirə olunub.

Tədbirdə BMT-nin hüquq müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forst, dinc toplaşmaq azadlığı hüququ məsələsi üzrə xüsusi məruzəçisi Mayna May, Azərbaycandan gənc fəal Nəcmin Kamil, hüquq müdafiəçisi Emin Hüseynov, jurnalist Xədicə İsmayılova (skayp vasitəsilə) və Azərbaycanın bu qurumdakı nümayəndəsi Vaqif Sadıqov çıxış ediblər. M.Forst deyib ki, ötən ilin sentyabrında Azərbaycanda olub və fundamental azadlıqların vəziyyətinin pisləşdiyinin, ölkənin avtoritarizmə doğru sürükləndiyinin şahidi olub. O özü fikirləri ilə əlaqədar hökumətin hücumlarına məruz qaldığını qeyd edib.

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri insan hüquqları sahəsində vəziyyətin pisləşməsi, vətəndaşların siyasi motivlərlə təqib edilməsi, siyasi məhbus sayılan şəxslərin sayının 150-ni keçməsi haqqında danışıblar. Müzakirələrin gedişi ilə bağlı Nəcmin Kamil məlumat verib.

Azərbaycanda blogger Mehman Hüseynovun bu günlərdə polisə böhtan atmaq ittihamı ilə 2 il həbs edilməsinə də diqqət yetirilib. Nəcmin Kamilin dediyinə görə, Vaqif Sadıqov tənqidi çıxışlarda səslənən fikirləri təkzib etməyə çalışıb. İşgəncələr haqqında verilən məlumatı “nağıl” adlandırıb. Öz növbəsində, vətəndaş cəmiyyətinin nümayəndələri BMT qurumlarını Azərbaycanda insan hüquqları ilə bağlı problemlərə diqqəti artırmağa səsləyib.(contac.az)



**Bəxtiyar Sadıqov:** “Sizinlə niyə hesablaşmalıyıq?”



**Mirvari Qəhrəmanlı:** “Hökumətin səhv siyasəti nəticəsində...”

**“Azərbaycan” qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov bildirdi ki, BMT-nin İnsan Hüquqları Şurasının tənqidləri ona qəribə gəlir:** “BMT artıq 30 ilə yaxındır ki, Azərbaycanda insanların hüquqlarının pozulması ilə bağlı qəbul etdiyi 4 qətnaməni yerinə yetirmir. Əgər onlar üçün insan haqları bu qədər önəmlidirsə, o zaman bir milyona yaxın məcburi köçkünümüzün hüquqlarının bərpasına çalışsınlar. Niyə öz sənədini yerinə yetirmədiyinə görə özünü tənqid etmir? Amma Azərbaycanda elə hesab edirlər ki, 1-2 nəfərin hüququ pozulub və dərhal onu müzakirəyə çıxarırlar. Bir dəfə özlərini müzakirə çıxarsalar çox yaxşı olar. Bunun səbəbini Azərbaycanın müstəqil siyasət yürütməsində, siyasətində öz milli maraqlarını öndə tutmasında görürəm. BMT son vaxtlar ikili standartlardan çıxış etməyə başlayıb. Ərəb ölkələrində onlar baş verənləri yaxşı görürlər. İstəmirlər ki, İslam aləmində həmrəylik, birlik, əməkdaşlıq olsun. Azərbaycan Dağlıq Qarabağ problemini öz ərazi bütövlüyü çərçivəsində həll edəcəyini bəyan edir. Gördülər ki, Azərbaycan ötən ilin aprelindəki döyüşlərdə öz gücünü necə göstərdi. Ölkəmiz heç vaxt işğal olunan ərazilərindən əl çəkməyəcək. Bu ərazilərin işğalında çıxış edənlər isə Ermənistan ərazisini genişləndirmək istəyirlər. Azərbaycan bunun qarşısında əzmlə dayanıb və ona təsir edə bilmirlər. Ona görə də beynəlxalq təşkilatlar bu cür variantlara əl atırlar. Onların müdafiə etdikləri insanlar konkret cinayət əməlinə görə həbs ediliblər. Onlarla bağlı məhkəmə qərarları var. Əgər insan taleyi sizin üçün bu qədər əzizdirsə, o zaman gəlin milyonların taleyini düşünək. Niyə onları kənara qoymusunuz? Deməli, sizin üçün barmaq sayı qədər əziz olan insan var, amma kütləvi şəkildə hüququ pozulan, Xocalıda soyqırıma məruz qalan, bu gün də hüquqları bərpa edilməyən insanlar var. Niyə onları müdafiə etmirsiniz? Niyə özünüz öz sənədinizə hörmət etmirsiniz? Əgər siz özünüzə hörmət etmirsinizsə, o zaman sizinlə niyə hesablaşmalıyıq? Bütün işlər standart olmalıdır, insan haqları ilə bağlı da, insanlara münasibətdə də”.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı hesab edir ki, bu cür təzyiqlərin Qərbdən gəlməsində hökumət daxilində olan bəzi qüvvələrin də rolu var:** “Hökumətdə bir qrup var ki, digər qrupları qızışdırmaq üçün əfv öncəsi planlı siyasət yürüdür, ya əfvin qabağını almaq, ya da azsaylı şəxslərin əfvə düşməsi üçün. Mehman Hüseynovun tutulması nə demək idi? Bəyəm o təhlükə mənbəyidir? Bloggerdir, nə çəkibsə, çəksin də... Hökumət bu dəqiqə Avropaya yaxınlaşmaq siyasəti aparır. Bir faktı deyim ki, son illərdə beynəlxalq təşkilatlar özlərindən heç nə yazmırlar. Əvvəllər həmin qurumlar ölkəmizdə olub, olanları yazırdılar. Diqqət yetirəndə görürük ki, əvvəlki illərlə son illərdəki hesabatlar arasında ciddi fərqlər var. Hökumətin səhv siyasəti nəticəsində bu qurumlar ölkədən çıxarıldı. İndi həmin qurumlar ölkədən göndərilən hesabatlara əsaslanırlar. Çünki ölkəmizdə deyillər, hadisələrlə yaxından tanış ola bilmirlər, məhkəmələrin monitorinqini aparmırlar. Nəticədə buradan göndərilən hesabatları əsas götürürlər. Qarşıdan əfv sərəncamı gəlir və böyük siyahının olacağı deyilir. Düşünürəm ki, bu ərəfədə gələn təzyiqlərə görə beynəlxalq təşkilatları deyil, özümüzü qınamalıyıq. Beynəlxalq təşkilatların ölkəmizdən çıxarılmasında rol oynayan qurumları qınamaq lazımdır”.

❑ **Cavanşir ABBASLI**

# Türk diplomatları İsveçrəyə qaçdılar

**Türk diplomatik pasportlarının bir neçə sahibi İsveçrədən sığınacaq istəyib. Virtualaz.org bildirir ki, bu barədə “Tages-Anzeiger” qəzeti yazıb.**



Sığınacağa görə müraciət etmiş diplomatik pasportlu şəxslərin dəqiq sayı bildirilmir. Ölkələrdən heç birinin hakimiyyəti isə hələlik şərh verməyib.

Xatırladaq ki, 2016-cı ilin 16 iyul gecəsi Türkiyədə hərbi qiyamçılar qrupu çevrilişə cəhd edib. Əsas qarşıdurma Ankarada və İstanbulda yaşanıb. Qarşıdurmada 240-dan çox türk vətəndaşı həlak olub, 2 mindən çox insan yaralanıb və qiyam yatırılıb.

**Azərbaycanın ərazilərini işğal etdiyinə və Xocalı soyqırımına görə Ermənistanın sanksiyalarla cəzalandırılmaması hər zaman müzakirə mövzusudur. Bunun üçün ölkəmizin təcavüzkar dövləti beynəlxalq tribunala verməsinin vacibliyi vurğulanır. Son illərdə bu istiqamətdə Azərbaycanın hərəkətə keçdiyi də müşahidə olunur.**

# Azərbaycan Ermənistanı sanksiyalarla mat edə bilər...

## Elman Nəsirov: "Cəzalanmayan işğalçı daha ağır cinayətlərə əl ata bilər"

Beynəlxalq qurumlardan düşmən ölkəyə qarşı sanksiyaların tətbiqi ilə bağlı tələb-çağırışlar intensiv olaraq səsləndirilir.

Azərbaycan prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Pakistanın paytaxtı İslamabadda keçirilən 13-cü sammitində çıxışı zamanı bu məsələyə toxunub. Sitat: "BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul edib. Həmin qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı və digər mötəbər beynəlxalq təşkilatlar bənzər qətnamə və qərarlar qəbul ediblər. İslam Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və son olaraq, 2016-cı ilin aprel ayında Ermənistan tərəfindən Azərbaycana qarşı edilmiş təcavüzlə bağlı nazirlər səviyyəsində kontakt qrupu yaradılıb. Ermənistan bu qətnamələrə əməl etməli və ya sanksiyalara məruz qalmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir".



Ekspertlər də zaman-zaman bu məsələni gündəmə gətirərək, Ermənistanı cəzalandırmaq üçün Azərbaycanın şanslarından söz açırlar.

**D**eputat, professor Elman Nəsirov bildirdi ki, ermənilərə qarşı bu günə qədər sanksiyaların tətbiq edilməməsi beynəlxalq hüququn işləmədiyini göstərir: "Eynşteyinin məşhur bir fikri var. O, hələ ötən əsrin 50-ci illərində demişdi ki, beynəlxalq hüquq yalnız beynəlxalq qanunlar külliyyatında mövcuddur, külliyyatdan kənarda beynəlxalq hüquq yoxdur. Onun o zamanlar dediyi fikirlər bu günlər yenidən aktuallaşıb. Hətta həmin dövrdən də daha çox aktualdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Avropa Parlamenti 2010-cu ildə Ermənistanı təcavüzkar elan edib. AŞ PA da eyni addımı atıb. İslam Əməkdaşlıq Təşkilatının da bu addımını deyə bilərik. Qoşulmama Hərəkatının və NATO-nun sənədlərində Ermənistanla bağlı müvafiq sənədlər var. BMT nizamnaməsinin 7-ci fəslində belə olan halda sanksiyalar nəzərdə tutulub. İqtisadi, maliyyə sanksiyaları, hətta hərbi güc belə nəzərdə tutulub. Təsəvvür edin ki, beynəlxalq qurumun bir yerdə münaqişə ilə bağlı başqa mövqeyinə digər yerdə isə tam başqa mövqeyinə rast gəlirik. Azərbaycan prezidenti bu məsələni dəfələrlə ən yüksək kürsülərdə dilə gətirib. Son çıxışlarının birində bildirib ki, Ermənistan heç vaxt özbaşına belə addımlar ata bilməzdi. Hətta onu da demişdi ki, bir dövlət ona pul, bir dövlət silah verir, başqa birisi təbliğini aparır. Bütün bunlar təbii ki, Ermənistanda arxayınçılıq yaradır. Bununla Ermənistanın beynəlxalq hüququ ayaqlar altına atdığının şahidi oluruq. Bu da çox acınacaqlı biz vəziyyətdir. Bu reallığa görə Azərbaycan tərəfi hər zaman ermənilərə qarşı sanksiyalar məsələsini gündəmdə saxlayır, beynəlxalq aləmdə önə çəkir. Amma nə edək ki, bu gün ikili standartlar ucbatından bu hal reallaşmır. Cənab prezident bir çıxışında çox mətləblərdən xəbər verən ifadələr işlətmişdi. Demişdi ki, bağlı qapılar arxasında deyirlər ki, torpaqları ermənilərə verin. Beynəlxalq qurumlar hüququn keşiyində dayanmalı, ermənilərə qanunla iqtisadi, maliyyə sanksiyaları tətbiq etməlidirlər. Amma bunu da etmirlər. Belə olan halda nə etməli olduğumuzu cənab prezident deyib: "Yeganə çarəmiz odur ki, biz güclənməliyik, güclənməliyik, güclənməliyik". Bu reallığın fonunda zaman gələcək, beynəlxalq hüquq da bizi müdafiə edəcək, Azərbaycan da bu münaqişənin hərbi yolla həlli hüququnu özündə saxlayacaq. BMT-nin qətnaməsinin 51-ci maddəsində aydın şəkildə yazılıb ki, ərazisi təcavüzə məruz qalan dövlətin müdafiə hüququ var. Sadəcə, Azərbaycan sülhpərvər ölkə olduğundan, Ali Baş Komandan hesab edir ki, danışıqların limiti tükənməyib. Əgər bu limit tükənsə, qeyri-dinc yolla ərazilərimizi azad etmək hüququndan istifadə edəcəyik. Beynəlxalq hüquq bizə bu imkanı verir. Hesab edirəm ki, münaqişənin dinc yolla həlli imkanları getdikcə azalmağa başlayır. ATƏT-in Minsk Qrupu, beynəlxalq aləm ermənilərə qarşı sanksiyaları işə salmasalar, işğalçıda növbəti dəfə bu inam hasil olacaq ki, deməli, onu cəzalandırmırlar. Nəticədə cəzalanmayan işğalçı daha ağır cinayətlərə əl ata bilər. Bunu beynəlxalq qurumlar artıq anlamalıdırlar. Əks təqdirdə, bütün məsuliyyət onların üzərinə düşəcək. Çünki Azərbaycan işğala məruz qalan tərəfdir. Daha gərgin hadisələrin yaşanmaması üçün qəti addımların atılmasının zamanıdır, hələ bu zamanın gecikdiyini də deyə bilərik".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycan-Avropa İttifaqı danışıqları yenidən gərgin mərhələdə

## Avropa İttifaqı ilə saziş hazırlanması üçün danışıqların getdiyi vaxtda həyata keçirilən həbslər bəzi suallar yaradıb; xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev Brüsseldə Mehman Hüseynovun həbsindən danışıb

**"Azərbaycan Respublikası və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq haqqında Saziş" layihəsinin hazırlanması üçün rəsmi danışıqlar getdiyi bir vaxtda Azərbaycanda bölgələrdə bir neçə müxalifət partiyası fəalının, həmçinin blogger Mehman Hüseynovun həbs olunması baş verdi.**

Artıq Mehman Hüseynovun həbsi ilə bağlı Avropa İttifaqı bəyanat verib. Bəyanatda Avropa İttifaqı xatırladır ki, Azərbaycanın beynəlxalq öhdəliklərinə və fundamental azadlıqlara hörmət etməsini gözləyir.

**Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev** isə Brüsseldə Avropa Siyasəti Mərkəzinin təşkil etdiyi Azərbaycan-Avropa İttifaqı münasibətlərinə həsr olunan tədbirdə bildirib ki, Azərbaycanda insan haqları ilə bağlı hər şey mükəmməl olmasa da, xeyli işlər görülür: "Azərbaycan demokratiyası gəncdir. Biz cəmi 20 il öncə demokratiyaya keçmişik. Ona kimi biz insan haqları nədir, insan haqlarının müdafiəsi nədir, bilməmişik. Azərbaycandakı insan haqlarının durumunun nəcəliyinə xeyli maraq var. Xanım Heidi Hautala (Finlandiyadan olan siyasətçi, Avropa Parlamentinin üzvü) Mehman Hüseynov işini vurğuladı. Mən demirəm ki, bu sahədə hər şey əladır. Hər ölkədə hətta əsrlər öncə demokratiyanın bünövrəsini qoymuş ölkələrdə də belə problemlər tapa bilərsiniz. Amma bunlara baxmayaraq, Azərbaycan insan haqları, təməl azadlıqlar və demokratiyanın müdafiəsini gücləndirməyə çalışır".

Qeyd edək ki, Azərbaycanla Avropa İttifaqı arasında saziş məsələsi xeyli müddət idi faktiki olaraq dayandırılmışdı, danışıqlar getmirdi. Azərbaycanın Avropa İttifaqı qarşısında öz şərti var idi. Əsas şərt Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyinin birmənalı müdafiə olunması idi. Avropa İttifaqının şərtlərindən biri isə demokratiyanın qorunması idi. Uzun müddət fasilədən sonra nəhayət, 2016-cı ilin sonlarında Avropa İttifaqı Şurası Azərbaycanla Avropa İttifaqı arasında "Azərbaycan Respublikası və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq haqqında Saziş" layihəsinə dair rəsmi danışıqlara başlamaq üçün mandat verdi. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov həmin hadisə ilə bağlı açıqlamasında demişdi ki, yeni sənəd təşkilatla ikitərəfli əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaq və əməkdaşlığın hərtərəfli inkişafını təmin etmək üçün hüquqi baza yaradacaq.



Verilən mandata əsasən bu ilin fevralından isə sazişin hazırlanması üçün danışıqlar başlanıb.

Belə bir ciddi prosesin getdiyi vaxtda yuxarıda xatırlatdığımız həbslərin həyata keçirilməsi bəyanatdan da görünür ki, Avropa İttifaqını heç də məmnun etməyib. Bəs son həbslər Avropa İttifaqı ilə başlanan danışıqlara mane ola, sazişin imzalanmasına əngəl yarada bilərmi?

**Beynəlxalq məsələlər üzrə ekspert, AMİP katibi Elşən Mustafayev bildirdi ki, 2015-ci ilin parlament seçkiləri öncəsi Azərbaycan hakimiyyətinin Avropa İttifaqı ilə münasibətlərində ciddi soyuqluğun yaranmasından sonra son aylarda hər iki tərəfdən strateji tərəfdaşlıq sazişi layihəsinin hazırlanması ilə bağlı bəyanatların səslənməsi ilk növbədə müsbət addım kimi qiymətləndirilməlidir. Amma hələ öncədən o da məlumdur ki, bu sazişin yekun olaraq imzalanması elə də asan olmayacaq. Bunu həm ölkə daxilindən, həm də ölkə xaricindən istəməyən ciddi qüvvələr var. Bu qüvvələr müxtəlif məqsədlərə xidmət etsələr də eyni sonucun olmasında maraqlıdırlar:** "Ölkə daxilində də bu danışıqların uğurla başa çatmasında maraqlı olan tərəflər olduğu kimi, buna qarşı olanların da mövqeləri güclüdür. Azərbaycanda rusiyameylli qüvvələrin işi hər vəchlə bu prosesi bacardıqca ləngitmək, uzatmaq və sonda bundan imtina etməkdir. Bunun üçün nə mümkündürsə edirlər. Məlumdur ki, Aİ-nin danışıqlar prosesində əsas istəklərindən biri ölkədə insan haqları, siyasi və ictimai sektordan olan fəalların, jurnalistlərin həbsi ilə bağlı problemlərin həllidir. Bu ərəfədə yeni həbslərin həyata keçirilməsi məhz danışıqlar prosesini dalana dirəyə biləcək faktorlardır. Artıq Avropa İttifaqından, beynəlxalq təşkilatlardan bu həbslərə reaksiyalar verilməyə başlayıb. Bayaq dediyim kimi, xaricdə də bu sazişi istəməyən, Azərbaycanla əməkdaşlığı rədd edən, dövlətə və millətə qarşı işlər aparan qüvvələr var. Həmçinin orada Azərbaycanı sevən, zaman-zaman haqlı tələblərimizi müdafiə edən, ölkədə insan haqları, siyasi məhbus problemlərinin olmamasına çağıran güclər də var. Amma nəzərə alın ki, bizdə baş verən bu həbslərə dostlarımız təəssüf edərək məcburən, düşmənlərimiz isə sevə-sevə eyni münasibəti ortaya qoyur. Yəni bu həbslərlə biz düşmənlərimizi daha da fəallaşdırırıq, dostlarımızın isə əl-qolunu bağlayırıq. Nəticədə ölkə ilə bağlı formalaşan fikirləri dağıtmaq üçün uzun illər və daha nələr-nələr sərf olunacaq. Bu saziş isə ölkəmiz üçün çox vacib və əhəmiyyətlidir. Həbsdə olanların hüquqlarını müdafiədən də bir addım geri çəkilmək olmaz. Onların azad olumasına çalışmaq lazımdır. Amma bunun sazişin imzalanmasına əngəl alətinə çevrilməsinə də imkan verməməliyik. Hesab edirəm ki, bu sazişin imzalanmasında hakimiyyət içindəki maraqlı güclərə siyasi partiyaların, ictimai təşkilatların dəstəyi olmalıdır. Belə olan halda sazişin imzalanması daha real ola bilər və ona mane olmaq istəyən güclərə də tutarlı cavab ola bilər".

**ADP sədrinin müavini Taliyət Əliyev isə bildirdi ki, Azərbaycan Avropanın xüsusi maraqlar dairəsində olan ölkədir. Bu baxımdan, Avropa və Qərb bu əməkdaşlığa regional təhlükəsizlik maraqları prizmasından yanaşırlar:** "Azərbaycan 20 ilə yaxındır ki, Avropa institutları ilə əməkdaşlıq edir, ölkədə insan hüquqları, azad mətbuat, seçkilərin demokratik qaydada keçirilməsi, siyasi hüquqların təmin olunması, siyasi baxışlarına görə insanların təqib olunmasının dayandırılması, siyasi məhbus probleminin birdəfəlik həll olunması və s. kimi öhdəlikləri həmin qurumlar qarşısında üzərinə götürməsinə baxmayaraq, bu öhdəliklərin əksəriyyəti havadan asılı qalıb. Amma Avropa institutları Azərbaycanla əməkdaşlığını davam etdirir. İndiki halda ölkədə həyata keçirilən son həbslər Aİ-Azərbaycan danışıqlarını bir qədər ləngidə bilər, amma danışıqların dayandırılması inandırıcı deyil".

❑ **Etibar SEYİDAĞA**

# Axtarişa verilən MTN polkovniki haqda ilginc iddialar

## Qusar MTN-in sabiq rəisi Nazim Fətullayevin köməkliyi ilə istirahət mərkəzlərində dincəlməyə gəlmiş məmurların gizli videolarının çəkildiyi deyilir

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Qusar Rayon Şöbəsinin sabiq rəisi, xüsusi xidmət orqanlarının polkovniki Nazim Fətullayev axtarışa verilib. Yayılan məlumatlarda N.Fətullayevin axtarışa verilməsinə səbəb kimi onun külli miqdarda dövlət əmlakını mənimsəməsi və müxtəlif banklardan götürdüyü krediti ödəməməsi göstərilir. Qeyd olunur ki, N.Fətullayev dəfələrlə məhkəmə çağırışlarından və istintaqdan yayındığına görə axtarışa verilib.**

Redakisyamıza daxil olan məlumata görə, sabiq rəisin MTN-in rəhbərliyi ilə sıcaq münasibətləri olub. Eldar Mahmudovun MTN-də mənzillənən çetesinin üzvləri hazırda axtarışda olan sabiq rəis üzərindən, onun köməkliyi ilə Qusardakı istirahət mərkəzlərində dincəlməyə gəlmiş məmurların gizli videoların çəkilməsini təşkil ediblər. Sonradan belə kompromatlardan istifadə etməklə məmurlar şantaj edilib, E.Mahmudovun çetesinin nəzarəti altına alınıb.

Belə ehtimallar var ki, sabiq rəisi məhkəməyə bank məsələsi ilə bağlı çəksələr də, faktiki olaraq ondan qeyri-rəsmi olaraq gizli çəkilən videomateriallar, başqa sözlə desək, kompromateriallar tələb olunub. N.Fətullayev əlindəki materialları verməmək üçün aradan çıxıb. Onun barəsində elan olunmuş həbsli axtarış yaxın vaxtlarda nəticə verməsə, barəsində İnterpol vasitəsilə də axtarış elan ediləcək.

Qeyd edək ki, Eldar Mahmudov vəzifədən çıxarılandan sonra tam çevrəsi bilinməyən




şəxslər barədə şantaj xarakterli videomateriallar topladığı bilindi. Hazırda ABŞ-da yaşayan MTN-in keçmiş zabiti Ərəstun Oruclu mətbuata müsahibəsində demişdi ki, Eldar Mahmudovun qruplaşmasının əlində tanınmış və imkanlı şəxsləri, ictimai fəalları və digərlərini şantaj etmək üçün gizli çəkilişlər var.

Keçmiş MTN zabiti Mahmudovun videotekasındakı CD-lərin konkret sayını da açıqlamışdı - 2 min 800 şantaj videosu. Ərəstun Oruclu 2800 rəqəminin ona mötəbər mənbələrdən verildiyini diqqətə çatdırmış, lakin başqa detallar haqda danışa bilmədiyini söyləmişdi. E.Mahmudovun "kinoçəkən"lərinin kameralarının hədəfində jurnalistlərin, ictimai fəalların, tanınmış şəxslərin, o cümlədən yüksək vəzifəli məmurlar və ailə üzvləri olduğunu açıqlamışdı. Ə.Oruclu həmin videoların hazırda harada olduğu haqda məlumatsız olduğunu da vurğulamışdı.

Eldar Mahmudov 10 ilə yaxın Azərbaycanın milli təhlükəsizlik naziri olub. Bundan əvvəl isə hüquq- mühafizə orqanlarında yüksək vəzifələrdə çalışıb. Onun milli təhlükəsizlik naziri kimi fəaliyyəti dövründə çox təhlükəli oyunlara baş vurmasının fərqində olmaması, sadəcə, inandırıcı deyil. E.Mahmudov gec-tez əməllərinin üstünün açıla biləcəyini fəaliyyəti dövründə çox ciddi şəkildə nəzərə alıb. Onu 2 il əvvəl tutduğu vəzifədən çıxarıblar, əmrinə müntəzir olan idarə rəislərinin bəzilərini həbsə göndəriblər. Eldar Mahmudovun özü isə azadlıqdadır. Onu niyə görə həbs etmirlər? Bəlkə həbs edə bilmirlər? Rəsmilər bu haqda susur. Mətbuatda isə E.Mahmudovun həbs edilməməsi ilə bağlı ən ağlabatan versiyalardan, iddialardan biri əlindəki şantaj videoları, kompromatların onu həbsdən sığortalaması ilə əlaqəlidir. Belədirsə, sabiq nazirin əlindəki materialları, onu həbsdən qurtaran videoları harada, kimdə saxlanıla bilər? Bu saul açıq olaraq qalmaqdadır. Digər tərəfdən, Eldar Mahmudov 2004-cü ildə nazir təyin olunandan 8 ay sonra - 2005-ci ilin martında "Qara kəmər" əməliyyatı baş tutdu. MTN-in gerçəkləşdirdiyi əməliyyat zamanı Hacı Məmmədovun bandası ifşa edildi. Bu əməliyyat Azərbaycanda uzun illər adam oğurlayan, sifarişlə qətl törədən Hacı Məmmədovun bandasının fəaliyyətinə son qoydu. Əməliyyatın planlaşdırılmasına rəvac verən isə 2005-ci il fevralın 10-da şəhərin mərkəzindən Zamirə Hacıyevanın oğurlanması faktı idi. Hacı Məmmədov Eldar Mahmudovun gələcək qudası Zamirə Hacıyevanı oğurlayıb özünün 2-ci həyat yoldaşı Nailə Bağırovanın Keşlə qəsəbəsindəki evində girovluqda 1 ay saxlamışdı. Z.Hacıyevanın həyat yoldaşı Cahangir Hacıyevdən 10 milyon avro tələb etmişdilər. "Qara kəmər" keçirilərkən Z.Hacıyevanın saxlandığı yerin qapısı önündə dayanmış banda üzvü odlu silahdan açılan atəşlə öldürülmüşdü. Bu iş üzrə məhkəmə araşdırmaları aparılarkən məlum olmuşdu ki, Hacı Məmmədovun evindəki gizli saxlanc yerindən çoxsaylı videomateriallar götürülüb. Komromat xarakteri daşıyan həmin materiallar məhkəmə və sonrakı dövrdə üzə çıxarılmadı. O dövrdə yayılan məlumatlardan belə aydın olurdu ki, Hacı Məmmədovun Qusardakı, o dövrlər üçün prestijli məkan kimi tanınan "Qarabulaq" istirahət mərkəzinə gələn məmurlar, müğənnilər və digər şəxslər gizli olaraq videoya çəkilib və sonradan şantaj olunublar. Mümkündür ki, Hacı Məmmədovun həbsindən sonra onun funksiyasını Qusarda N.Fətullayev həyata keçirib. Onun vasitəsilə MTN çetesi ölkənin ucqarlarında belə maraqlarına uyğun komromateriallar toplayıblar. İndi isə E.Mahmudov vəzifədə deyil və onun şəxsinə biət edən çoxsaylı işverənlərindən biri kimi N.Fətullayev təqib edilməyə başlayıb. Məsələnin bu tərəfi də var ki, o, həbs olunsa belə, ictimaiyyətə topladığı kompromaterialların məğzi haqda çətin ki, məlumat verilər. Ən yaxşı halda bank borcu məsələsi haqda bir qədər geniş məlumat verilməsi də təəccüblü olmaz.

❑ **E.HÜSEYNOV**

# 80 yaşlı Elmira Süleymanovanın səlahiyyət müəmması

## **Aydın Səfixanlı:** "Elmira Süleymanovanın fəaliyyətini davam etdirməsi qanunvericiliyə uyğundur"

## **Fazil Mustafa:** "Qanuna görə, şəxs iki dəfədən artıq ombudsman ola bilməz"

**Martın 5-də Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanovanın səlahiyyət müddəti başa çatıb. Lakin onun yenə də ombudsman kimi fəaliyyətini davam etdirə biləcəyi söylənilir.**

Belə ki, Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı "report"a bildirib ki, Elmira Süleymanovanın Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili kimi fəaliyyətini davam etdirməsi qanunvericiliyə uyğundur. O qeyd edib ki, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Qanuna əsasən, müvəkkilin səlahiyyət müddəti bitdiyi gün yeni müvəkkil seçilmədikdə, o, səlahiyyətlərinin icrasını davam etdirir. Bu halda onun səlahiyyət müddəti yeni müvəkkilin seçildiyi gündən bitmiş hesab olunur.

Elmira Süleymanova 2010-cu il martın 5-də ikinci dəfə Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) seçilib. Onun səlahiyyət müddəti bu il martın 5-də başa çatıb.

Qanunvericiliyə əsasən, Azərbaycan prezidenti Milli Məclisə yeni müvəkkilin seçilməsi üçün üç şəxsin namizədliyini təqdim edəcək. Parlament isə 15 gün müddətində müvəkkilin seçilməsi ilə bağlı müvafiq qərar qəbul etməlidir.

**Deputat Fazil Mustafa "Yeni Müsavat"a bildirib ki, qanunvericilikdə dəyişiklik olmasa, Elmira Süleymanovanın səlahiyyət müddəti artırıla bilməz:** "Əvvəllər ombudsman bir dəfə seçilə bilərdi. Sonradan isə qanunvercilikdə dəyişiklik oldu və "bir dəfə" sözü götürüldü. İndi isə qanuna görə, iki dəfədən artıq ola bilməz. Ombudsman ümumi çoxluğun qərarı ilə qəbul olunursa və qanun qüvvəyə minirsə, bunu qiymətləndirməyə gərək yoxdur. Hesab edirəm ki, indiki Azərbaycan reallığında müəyyən dərəcədə insan haqları məsələsində az-çox fəaliyyət göstərən qurum ombudsmandır. Müəyyən tədbirləri, yerlərdə baş çəkmələr, insanların problemləri ilə maraqlanmaqla ən azı gərginliyi müəyyən qədər aradan qaldıra bilirlər".


Elmira Süleymanova

**Onu da qeyd edək ki, martın 7-də Milli Məclisdə Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili Elmira Süleymanova illik məruzə ilə çıxış edib. Lakin bu hesabat bəzi deputatlar tərəfindən birmənalı qarşılanmayıb. Belə ki, deputat Zahid Oruc bildirib ki, ombudsmanın hesabatı şablon ifadələrdən ibarətdir və sanki sovet zamanındakı çıxışları xatırladır. Deputat söyləyib ki, cəmiyyətdə olan bir çox ciddi problem var ki, hesabatda, ümumiyyətlə, adı keçmir:** "Elmira xanım, bu qədər konyukturaçı olmaq lazım deyil. Nəyə lazımdır axı, ancaq tərif dolu hesabat?! Bu yaxınlarda Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev dedi ki, 950-dən çox Azərbaycan vətəndaşı İraqda, Suriyada ekstremist təşkilatların tərkibində döyüşür. Bəs nədir onları Azərbaycandan uzaqlaşdıran? Hesabatda niyə bunlardan danışılmır".

Ombudsmanın səlahiyyətləri nələrdir?

Ombudsman əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı ölkə prezidentinə təkliflər verə bilər. İşgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədilə o, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri saydığı istənilən halda baş çəkə bilər. 2015-ci ildə qanuna edilən dəyişiklikdən sonra aparatın səlahiyyəti artırılıb. Belə ki, dəyişikliyə görə, aparatda milli preventiv qrup yaradılıb və bu qrup istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qanunsuz miqrantların saxlanılması mərkəzlərinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil ola bilər. Müvəkkil müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedir.

"Ombudsman haqqında" Konstitusiya Qanununun 19-cu maddəsinə əsasən, müvəkkilin, onun aparatının və regional mərkəzlərinin fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir. Həmçinin müvəkkilin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan illik vəsaitin tərkibində cari xərclərin məbləği əvvəlki maliyyə ilində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən az ola bilməz. Məlumat üçün bildirək ki, aparatın rəhbəri 2,025 manat maaş alır.

Bundan əlavə, Ombudsman Aparatına qadağan olunan hallar da var. Belə ki, İnsan hüquqları üzrə müvəkkil ölkə prezidentinin, Milli Məclisin deputatlarının və məhkəmə hakimlərinin fəaliyyətini yoxlaya bilməz. Şəxsin ikili vətəndaşlığı, başqa dövlətlər qarşısında öhdəliyi varsa, qanunvericilik, icra və məhkəmə hakimiyyəti sistemlərində qulluq edirsə, ödənişli fəaliyyəti varsa, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilibsə, ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunubsa, o, ombudsman ola bilməz.

Ombudsman siyasi fəaliyyətlə məşğul ola və siyasi partiya üzvü ola, hər hansı qeyri-hökumət təşkilatının rəhbərliyində təmsil oluna bilməz. Eyni şəxs iki dəfədən artıq müvəkkil seçilə bilməz.

**Qeyd edək ki, 80 yaşlı E.Süleymanova 17 iyul 1937-ci ildə Bakı şəhərində anadan olub.**

❑ **Əli RAİS**

Yeni MÜSAVAT
N 53 (6667) 10 mart 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Qarabağ danışıqlarının dalana dirəndiyi bir ərəfədə ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri Ceyms Uorlikin tənzimlənmənin zəruriliyi barədə verdiyi açıqlama yeni suallara yol acıb. Həmsədrlik fəaliyyəti dövründə daha çox "turist" funksiyasını yerinə yetirən, işğala son qoyulması ilə bağlı prinsipial mövqe sərgiləmək əvəzinə, bölgəyə səfəri zamanı Kəlbəcərə yağan qar haqqında sentimental fikirlərini bölüşən diplomatın "dilinin indi açılması" maraqlıdır.**



# Qərb Qarabağda sülh istəyir, amma nəyin əvəzində?

## Minsk Qrupunun keçmiş həmsədri Ceyms Uorlikin tənzimlənmənin zəruriliyi barədə verdiyi açıqlama yeni suallara yol acıb; **politoloq:** "Azərbaycana qarşı təzyiqlər var..."

Düzdür, C.Uorlik elə də sensasiyalı açıqlama ilə çıxış etməyib. Ancaq hər halda, onun öz funksiyasını başqa həmkarına ötürməsindən sonra Qarabağ cəbhəsində baş verən gərginliklərə reaksiya verməsi təsadüfə də bənzəmir. "Amerikanın Səsi"nə müsahibəsində o deyib ki, Azərbaycan və Ermənistan prezidentləri xalqlarını sülhə hazırlamalıdırlar. "Anlamaq zəruridir ki, Dağlıq Qarabağın statusu müzakirə edilməlidir, lakin bununla birlikdə, ərazilərin Azərbaycana qaytarılmasından danışmaq lazımdır. Hər iki prezident irəli getməyə hazır olmalıdır. Hər ikisi - yalnız biri, yaxud digəri sülhün vaxtının çatmasına qərar verməməlidir. Sülh isə risklə bağlıdır" deyə, Uorlik əlavə edib. Diplomatın prezidentlərə xitabən xalqları sülhə hazırlamaq çağırışı etməsi də yenilik deyil. Bundan əvvəl də belə çağırışların şahidi olmuşuq. Lakin amerikalı diplomat yenə də ənənəsinə sadiq qalaraq işğalçı ilə işğala məruz qalan arasında bərabərlik işarəsi qoyub ki, bu da qəbulolunmazdır.

**"Mən insanları eşitmək istərdim, çünki Ermənistanda və Azərbaycanda insanlar hesab edirlər ki, sülhün və prezidentləri tənzimlənmə yolu ilə getməyə vadar etməyin vaxtı çatıb" - deyən Uorlik əlavə edib ki, onun təəssüratlarına görə, Ermənistan və Azərbaycan liderləri münaqişənin bərpasının çox təhlükəli olmasını dərk edirlər.** "Bu günə kimi də məlum deyil ki, Dağlıq Qarabağ münaqişəsi zonasında təmas xəttində nə baş verir. Belə ki, kimin ilk atəşi açması barədə dəqiq məlumat verəcək müstəqil informasiya qaynağı yoxdur. Ötən ilin aprelində çoxsaylı itkilər olmuşdu, bu günə qədər də qurbanların dəqiq sayı məlum deyil" deyə, Uorlik bildirib.

Onun sözlərinə görə, "status-kvo"nun qorunub saxlanması sülhə gətirməyəcək. "Status-kvo" qeyri-sabitdir, o, müharibə təhlükəsini daha inandırıcı edir, sülh isə regionda hər şeyi dəyişəcək. Bu, Ermənistana yeni imkanlar açacaq, iqtisadi artıma səbəb olacaq" deyə, Uorlik əlavə edib. Keçmiş həmsədr hesab edir ki, tənzimlənmə yolunda əsas maneə tərəflərdə siyasi iradəsinin çatışmamasıdır.

Amerikalı diplomat sülh hazırlıqlarından bəhs edərkən ən azı Bakıda təsis olunan, ermənilərin də iştirak etdiyi "Ermənistan-Azərbaycan Sülh Platforması"ndan bəhs etməli idi. Göründüyü kimi, Azərbaycan rəhbərliyi yenə də sülhə sadiqdir və İrəvandan qaçan erməni fəalları Bakıda fəaliyyətinə, onların erməni xalqına, Qarabağdakı hərbçilərə sülhü dəstəkləmək, silahı yerə qoymaq üçün çağırış etmələri üçün efir imkanı yaradıb. Lakin həmsədrlər, beynəlxalq təşkilatlar kimi, C.Uorlik də bu mühüm faktı "unudub".

Ermənistan prezidenti isə yenə də o fikirdədir ki, Qarabağ erməniləri Azərbaycanın tərkibində yaşaya bilməz . Serj Sərkisyanın seçki ərəfəsində gah müharibə bəyanatı verməsi, gah da sülhdən bəhs etməsi isə yalnız daxili auditoriyaya hesablanıb.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Uorlik hazırda prosesdə iştirak etmədiyi üçün daha açıq danışır:** "Keçmiş həmsədrin açıqlamasını bütövlükdə Qərbin, o cümlədən Birləşmiş Ştatların mövqeyi kimi qəbul etmək doğru olmazdı. Unutmaq lazım deyil ki, Ceyms Uorlik həmsədrliyə Obamanın prezidentliyi dövründə gətirilmişdi və o, öz fəaliyyətində sabiq prezidentin komandasının Cənubi Qafqazla bağlı siyasətinin əsas elementlərini də nəzərə alırdı. İndi ABŞ-da hakimiyyətdə Donald Trampdır və onun komandasının Cənubi Qafqaz siyasətinin bütün detalları aydın olmasa da, hər halda, Obamadan fərqli olduğu şübhəsizdir. Bu baxımdan, indi Uorlikdən daha çox, yeni həmsədr Riçard Hoqlandın deyəcəklərini nəzərə almaq daha doğru olardı".

**Siyasi təhlilçinin qənaətinə görə, Uorlikin yanaşmasında onun korporativ maraqları da yer alıb:** "Adətən ABŞ diplomatları postlarını tərk etdikdən sonra lobbiçilik fəaliyyəti ilə də məşğul olurlar. Hər halda, yaxın zamanlarda Uorlikin ermənilərlə işbirliyində olduğu ortaya çıxarsa, bundan təəccüblənmək lazım deyil. Sabiq həmsədrin Dağlıq Qarabağın statusu ilə bərabər Azərbaycan torpaqlarının işğaldan azad edilməsini də dilə gətirməsi manipulyativ xarakter daşıyır və birmənalı olaraq Ermənistanın mövqeyini ifadə edir. Azərbaycanın bu məsələ ilə bağlı mövqeyi aydındır. Dağlıq Qarabağın statusu yalnız işğalçı qüvvələr geri çəkildikdən və məcburi köçkünlər öz yaşayış yerlərinə qayıtdıqdan sonra müəyyənləşə bilər. Uorlik status və torpaqların geri qaytarılması ilə bağlı müzakirələrin eyni vaxtda aparılmasını dilə gətirməklə münaqişənin paket həllinin vacibliyini önə çəkir ki, bu da rəsmi İrəvanın mövqeyini ifadə edir. Münaqişənin paket həlli isə o zaman mümkün ola bilər ki, Ermənistan Dağlıq Qarabağın Azərbaycanın tərkibində muxtar bölgə statusunu qəbul etsin və bununla bağlı öz üzərinə müvafiq öhdəliklər götürsün". **E.Mirzəbəyli qeyd etdi ki, Azərbaycana qarşı təzyiqlər var və hər zaman da olacaq:** "Amma bu, ölkəmizin təzyiqlər qarşısında geri çəkiləcəyi anlamına gəlməməlidir. Azərbaycan prezidenti torpaqlarımızın bir qarşının da Ermənistana verilməyəcəyini ən yüksək beynəlxalq tribunalardan dəfələrlə bəyan edib. Paris görüşünün isə Uorlikin açıqlaması ilə hər hansı bir formada əlaqəli olduğunu düşünmürəm. Ceyms Uorlik provakator kimi danışıb və onun açıqlamaları daha çox ictimai rəyə hesablanıb. Uorlik deyir ki, "Ermənistanda və Azərbaycanda insanlar hesab edirlər ki, sülhün və prezidentləri tənzimlənmə yolu ilə getməyə vadar etməyin vaxtı çatıb". Göründüyü kimi, Uorlik "vadar etməkdən", yəni təzyiq göstərməkdən danışır. Sabiq həmsədrin açıqlamasında təhdid və ictimai təzyiqə çağırış elementləri var. Uorlikin Azərbaycanda kimlərin fikirlərinə əsaslandığını bilmirəm. Ola bilsin ki, Uorlik Azərbaycandan kənarda yaşayan, yaxud xarici qüvvələrin nüfuz müvəkkilliyini yerinə yetirən hansısa 1-2 satqınla bu barədə danışıb. Amma Azərbaycan vətəndaşlarının 99,9 faizi torpaqların bir qarışının belə güzəştə gedilməsini istəmir və bu məsələdə siyasi hakimiyyətə açıq dəstək verir. Bu yanaşmanın nə zamansa dəyişə biləcəyini də düşünmürəm".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirdi ki, Uorlikin açıqlamasında yeni heç nə yoxdur:** "O, həmsədr olanda da Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması gərəkliyini bir neçə dəfə təkrarlamışdı. Uorlik "status-kvo"nun da bölgədə gərginliyi azaltmadığını söyləmişdi. Ancaq o, budəfəki dediklərinə "status da müzakirə olunmalıdır" cümləsini əlavə edir. Erməni separatçıları da Uorlikin və ya Rusiyanın xarici işlər naziri Sergey Lavrovun eyni tip açıqlamasını əllərində rəhbəri tutaraq "rayonların boşaldılması əvəzinə status" formulunu irəli sürürlər. Bu formul isə Azərbaycanın maraqlarına cavab vermir. Dağlıq Qarabağın statusu sonrakı mərhələnin müzakirə predmetidir. Uorlik indi həmsədr deyil və Dağlıq Qarabağla bağlı fikirlərini sərbəst şəkildə ifadə edir. Ancaq indi onun dediklərinin çəkisi yoxdur. O, həmsədr olan dövrdə tərəflərin mövqelərini uzlaşdırmağa çalışmalı idi". **E.Şahinoğlu qeyd etdi ki, masa üzərindəki danışıqların hazırkı durumu sülhü yaxınlaşdırmır:** "Ona görə də cəbhə bölgəsində vəziyyət gərgin olaraq qalacaq. Bunu Ermənistan prezidenti Serj Sərkisyan da anlayır. Təsadüfi deyil ki, Ermənistan prezidenti son müsahibəsində müharibənin hər an başlaya biləcəyini deyib. Sərkisyan haqlıdır, belə vəziyyətdə toqquşmaların davamı labüddür".

**Ekspertin sözlərinə görə, Uorlik və digər Qərb diplomatların formulu Rusiyanın formulundan fərqlənmir:** "Ermənistan işğal altında saxladığı 7 rayonu mərhələ-mərhələ boşaltsın, bunun əvəzində Azərbaycan yaxın gələcəkdə Dağlıq Qarabağın müstəqilliyinə razılaşsın". Azərbaycan heç zaman bu formulu qəbul etməyəcək. Yeganə güzəşt Dağlıq Qarabağa aralıq statusun verilməsidir ki, bu həm Azərbaycanın, həm Dağlıq Qarabağda yaşayan ermənilərin, həm də Ermənistanın maraqlarına zidd deyil".

**Ermənistan prezidenti Serj Sərkisyanın Parisdə Fransa prezidenti Fransua Ollandla görüşü və müzakirə predmetidir. Rəsmi məlumata görə, tərəflər ikitərəfli münasibətlər, beynəlxalq vəziyyətlə yanaşı, Qarabağ münaqişəsinin nizamlanması məsələsini də müzakirə ediblər.** "Fransa Dağlıq Qarabağ münaqişəsinin həllinə töhfə verə bilər. Fransa ABŞ və Rusiya ilə birgə Minsk Qrupunun həmsədridir. Biz son zamanlar baş verən insidentlərin təkrarlanmaması və münaqişənin siyasi yolla həllində maraqlıyıq", deyə S.Sərkisyanla görüşün yekunlarını şərh edən F.Olland bildirib. (APA) Hər halda, Parisin münaqişənin həllinə nə dərəcədə "töhfə" verə biləcəyini Ollandın ötən ay ermənilərlə görüşündə sərgilədiyi mövqe də "isbatlayır". Həmin toplantıda Olland Qarabağ ermənilərinin "öz müqəddəratını təyinetmə hüququ"ndan danışmaqla əslində tərəf olduğunu ortaya qoydu. Bir neçə gün sonra isə Azərbaycan prezidentinin də Parisə səfəri gözlənilir. Bu münada Qarabağ danışıqlarında Parisin təşəbbüsü ələ aldığı görüntüsü yaranır. Ancaq Rusiya prosesləri diqqətlə izləyir. Bir neçə gün əvvəl Azərbaycan XİN başçısı Elmar Məmmədyarov rusiyalı həmkarı ilə görüşdü və nikbin hansısa açıqlaması olmadı. Martın 14-də S.Sərkisyan Moskvaya səfər edəcək.

**Politoloq Elçin Mirzəbəyli də hesab edir ki, Paris görüşlərindən münaqişənin həlli ilə bağlı ciddi nə isə gözləməyə dəyməz:** "Ola bilsin ki, danışıqlar prosesində müəyyən dinamika yaransın. Amma bu dinamika yalnız Ermənistanda keçiriləcək seçkilərdən sonra və Rusiyanın iştirakı ilə yarana bilər. Nə ABŞ, nə də Fransa bugünkü geosiyasi reallıqlar müstəvisində Dağlıq Qarabağ münaqişəsinə həlledici təsir imkanlarına malik deyillər".

**E.Şahinoğlu da bu fikirdədir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından Azərbaycan və Ermənistan prezidentlərinin Parisə səfərləri ciddi əhəmiyyət kəsb etmir:** "Birincisi, Fransanın hazırkı prezidenti Fransua Olland təxminən bir aydan sonra dövlət başçısı vəzifəsini daşımayacaq. Fransada apreldə prezident seçkisidir və başqa siyasətçi ölkəyə rəhbərlik edəcək. Odur ki, Fransua Olland istəsə belə, bir ayda Dağlıq Qarabağ münaqişəsinin həllinə yenilik gətirə bilməz. Ona görə də Ermənistan, ardından isə Azərbaycan prezidentinin Fransaya səfərləri faktiki Fransua Ollandla sağollaşmaq mahiyyəti daşıyır. İkincisi, Azərbaycan və Ermənistan prezidentlərinin Parisə səfərləri daha çox iqtisadi amillərlə bağlıdır. Ermənistan prezidenti Parisdə fransalı iş adamları ilə görüşüb. Eyni görüşü Azərbaycan prezidenti də həyata keçirəcək. Sadəcə, fərq ondadır ki, Ermənistanın indiki ağır vəziyyətində Fransa iş adamları cazibədar nəsə təklif edə bilməz. Azərbaycan isə böyük layihələrin iştirakçısı olduğundan fransalı iş adamlarının investisiyalarına gəlir imkanları saxlaya bilər".

Aprelin 2-də Ermənistanda parlament seçkiləri baş tutacaq. Seçkilərin önəmi ölkənin ötən il dekabrın 6-da yeni konstitusiya qəbul etdikdən sonra parlament respublikasına keçməsi ilə bağlıdır. Yəni seçkilərdə qalib gələn siyasi partiya geniş səlahiyyətlərə malik olacaq və faktiki olaraq yaxın 5 il ərzində ölkənin gündəmini müəyyən edəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY



# 5 tələbənin qatili olan sürücü 61 dəfə cərimə olunubmuş!

## Ərşad Hüseynov: "İctimai nəqliyyat vasitələrinin sükanı arxasında olan sürücülərimizin 70-80 faizi potensial qatillərdir"

**Son vaxtlar Azərbaycanda dəhşətli yol qəzalarının sayı artıb və bu qəzalarda kütləvi ölüm halları az qala adi hala çevrilib. Bu cür dəhşətli avtobus qəzalarından biri də martın 9-da səhər saatlarında Bakı-Sumqayıt yolunda baş verib. Qəza "Ford-tranzit" markalı mikroavtobusun yük maşınına çırpılması nəticəsində baş verib.**

Mikroavtobusda olan 5 tələbə həlak olub, 21 nəfər yaralanıb. Ölənlərin hamısı Sumqayıt Dövlət Universitetinin tələbələri olub. Qəzada həlak olan tələbələrin meyitləri ailələrinə təhvil verilib.

"Qafqazinfo" xəbər verir ki, cəsədlərin təhvil verildiyi Respublika Kliniki Xəstəxanasının qarşısında dramatik anlar yaşanıb. Səhər övladlarını dərsə yola salan valideynlər az sonra onların cəsədlərini qarşılayıblar.

Baş verən qəzaya görə saxlanılan 52-BE-874 dövlət qeydiyyat nişanlı "ZİL" markalı yük avtomobilinin sürücüsü, Sumqayıt şəhər sakini 1992-ci il təvəllüdlü Şəmistanlı Elvin Eldar oğlu DİN-in Baş İstintaq və Təhqiqat İdarəsində izahat verib. O bildirib ki, martın 8-də axşam saat 22:00 radələrində Sumqayıt istiqamətində körpünün üzərində idarə etdiyi yük avtomobilinin təkərlərində problem yaranıb. Nəticədə sürücü yük avtomobilini körpünün sonunda saxlayıb: **"Mən maşını saxladığım yerdən bir neçə metr aralıda xəbərdarlıq nişanı və 30 metr aralıda 3 ədəd mişar daşı qoymuşdum. Gecə saatlarında isə yol polisi əməkdaşları yük avtomobilinin hərəkətsiz vəziyyətdə dayandığı yeri xəbərdaredici lentlərlə bağlayıb. Səhər saatlarında usta ilə birgə geri dönərkən gördüm ki, "Ford" mişar daşlarının üstünə çıxıb və mənim yük avtomobilimin arxa hissəsinə çırpılıb".**

Faktla bağlı cinayət işi başlanılıb, E. Şəmistanlı və "Ford" markalı mikroavtobusun sürücüsü Namiq Hüseynov saxlanılıb. Qeyd edək ki, qəzanın başvermə anını və səbəbini açıq-aşkar əks etdirən görüntülər yayılıb. Görüntülərdən məlum olur ki, qəza törədən qırmızı rəngli "Ford"un sürücüsü körpünün üzərində qanunsuz ötmə əməliyyatı aparır, digər "Ford"u sağdan ötməyə çalışır. Hansı ki, sağdan ötmə qadağandır. Araşdırmalar zamanı məlum olub ki, qəza törədən "Ford" markalı mikroavtobusun sürücüsü Namiq Hüseynov uzun illərdir "Ford" sürür və o, 2012-ci ildən martın 6-dək 61 dəfə cərimə olunub. Təkcə ötən ilə 24 dəfə cərimələnib.

Görünən odur ki, növbəti sürücü səhlənkarlığı daha 5 nəfər ailənin gözünü yaşlı qoydu. Son statistikaya nəzər salsaq görərik ki, yanvarın əvvəlindən fevralın 16-na qədər baş vermiş yol-qəza hadisələrində piyadaların avtomobillərlə vurulması halları ciddi narahatlıq doğurur və ciddi tədbirlərin görülməsini zəruri edir. Bu barədə Daxili İşlər Nazirliyi (DİN) Bakı Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polis polkovniki Vaqif Əsədov mətbuata açıqlamasında bildirib. V.Əsəsdov deyib ki, qeyd olunan müddət ərzində Bakı şəhərində yol-nəqliyyat hadisələrində 22 nəfər həyatını itirib ki, bunun da 13-ü piyadalardır. Piyadalarla bağlı həyata keçirilən zəruri tədbirlər davam etdirilir. Təhlükəsizliyin təmin edilməsi ilə bağlı qeyd edilən tarix ərzində ümumilikdə yol polisi əməkdaşları tərəfindən 91,625 inzibati protokol tərtib edilib. Eyni zamanda 22,753 piyada saxlanılaraq məsuliyyətə cəlb edilib. Bundan əlavə, mərkəzi məlumat sistemi vasitəsilə elektron qaydada 74,848 protokol tərtib edilib.







Maraqlıdır, bu qədər yol qəzalarının baş verməsinə səbəb nədir? Xatırladaq ki, Azərbaycanda kifayət qədər yarımçıq və uçuq-sökük təhlükəli magistral yollar var. Təhlükəli hesab edilən yollardan biri də Ağsu aşırımıdır. Bundan başqa, Lənkəran-Lerik yolu da təhlükəlidir. Bura yolu düşənlər hər ağaca qırmızı lent bağlandığını görə bilərlər. Bu isə o deməkdir ki, bu yol çox canlar alıb. Daha bir təhlükəli yol Şəkidən Qaxa gedən yol və Oğuz yoludur. Bu yollar dar olduğuna görə tez-tez qəzalar baş verir. Qəzaların bir səbəbi də Bakıdan rayonlara fasiləsiz və yuxusuz halda işləyən mikroavtobus sürücüləridir. Bir çox ekspertlər bu cür sürücüləri potensial qatil, cani adlandırırlar. Bildiyiniz kimi, rayonlara çalışan mikroavtobusların gecə saatlarında yola çıxması qadağan edilib. Ancaq buna baxmayaraq, hələ də gecə rayona yola çıxan mikroavtobuslar var. Onlar avtovağzaldan kənarda dayanır və əvvəlcədən təyin olunmuş müştəriləri yığıb yola düşürlər. Çatdıqları rayonda 2 saat dincəlib yenidən sərnişin yığaraq geri qayıdırlar. Təbii ki, yuxusuz və yorğun sürücü hər an onlarla günahsız insanın qatilinə çevrilə bilər. Paytaxtda baş verən qəzalara səbəb isə sürücülərin plan doldurmaq istəyi və 20 qəpik artıq qazanc əldə etmək hərisliyidir. Çoxlarımız sürücülərin telefonla danışaraq, tum çırtlayaraq, siqaret çəkərək avtobus idarə etdiyinin və qəzalı vəziyyət yaratdığının şahidi olmuşuq. Maraqlısı isə odur ki, yol polisləri bu kimi neqativ halları görməzlikdən gəlir.

**Nəqliyyat eksperti Ərşad Hüseynov deyir ki, burada əsas səbəb insan təfəkkürü, insan düşüncəsidir:** "Bu dəqiqə Azərbaycanda avtobus sükanı arxasında olan sürücülərimizin 70-80 faizi potensial qatillərdir. Çünki heç bir hazırlıqları yoxdur, sadəcə olaraq, kamikadzeliklə məşğuldurlar. Bu sürücülər pul qazanmaq üçün hər şeyə getməyə hazırdırlar. İnsan həyatı, yol hərəkəti qaydaları hamısı ikinci, üçüncü planda qalır. Biz bunu dəyişməliyik. Sürət yolunda təhlükəsizliklə bağlı çox ciddi qüsurlar var. Sürücülər, xüsusən də avtobus sürücüləri kamikadzeliklə məşğul olduqları üçün nəticədə 5 nəfər ölüb, 21 nəfər insan xəsarət alıb. Bu insan amilidir, çünki bunlara nəzarət edən insandır. Mən dəfələrlə radioda, mətbuatda, televiziyada da danışmışam ki, sürücülər kamikadzelik edir, insanları öldürür və azadlıqlarını itirir".

**Ə.Hüseynov Bakı-Sumqayıt yolunda fəaliyyət göstərən ictimai nəqliyyat vasitələri ilə bağlı şok detalları da açıqlayıb. Ekspertin sözlərinə görə, Bakıdan Sumqayıta və əks istiqamətdə sərnişin aparan nəqliyyat vasitələrinin əksəriyyəti yük maşınlarıdır:** "Həmin avtomobillərin əksəriyyəti yük avtomobilləridir. Sadəcə, konstruksiyasını dəyişib sərnişin mikroavtobusu ediblər. Bundan əlavə, sürücülər həmin maşınlarda özbaşına konstruksiya dəyişikliyi ediblər. Şəhadətnamədə yük avtomobili yazılıb, amma sərnişin daşıyırlar. Hətta sərnişin daşıma üçün nəzərdə tutulan avtomobillərin də əksəriyyətində konstruksiya dəyişikliyi edilir. O maşını zavod 13, 15 nəfərlik buraxır. Amma ara məsafəsi üçün nəzərdə tutulan hissəyə açılıb-yığılan oturacaqlar düzürlər və 18, 20 və daha artıq adam aparırlar. Konstruksiyaları da dəyişildiyi üçün həmin maşınlar qəzaya düşəndə ölü və yaralı sayı bir az da artır. Mikroavtobusda istehsalçının müəyyən etdiyi sayda oturacaqlar olmalıdır. Oturacaqlar təhlükəsizlik kəməri ilə təchiz edilmiş olmalıdır. Belə olan halda qəzanın nəticələri minimuma enir. Amma bunlar yoxdur. Olmadığı üçün də belə faciələr yaranır".

**Ərşad Hüseynovun sözlərinə görə, bu özbaşınalıq illərdir davam edir:** "Bu faciəvi özbaşınalıqdır, illərdir davam edən vəhşilikdir. Buna göz yumulur. Nəinki göz yumulur, hətta buna şərait də yaradılır. Bakı-Sumqayıt arasında bu daşımalar uzun müddətdir davam edir. "20 Yanvar" metro stansiyasının ətrafında Bakı-Sumqayıt yolunun sürücüləri nə hoqqalardan çıxır, hamı bunu gözəl bilir. Təkcə DYP yox, nəqliyyatın tənzimlənməsinə məsul olan, habelə polisin bütün xidmətləri bu işə ciddi yanaşmalıdır. "20 Yanvar" ətrafına Bakı-Sumqayıt yolunda "meymunluq" edənlər hətta özlərinə qanunsuz avtovağzal da yaradıblar. Oradan da işləyirlər. Şəxsən mən bunun dəfələrlə şahidi olmuşam. Yığışdırılması üçün müraciət etmişəm. Mətbuatda işıqlandırmışam. Onlarda nəinki sürücülük, heç insanlıq əlamətləri yoxdur. Kamikadze kimi aparırlar özlərini. Nəticəsi də göz qabağındadır".

❑ **Günel MANAFLI**



# Bayram günü üç qadın dəm qazından öldü - biri 23 yaşlı modeldir

**Martın 8-də Bakıda 3 nəfər dəm qazından zəhərlənib ölüb. Virtualaz.org Daxili İşlər Nazirliyinə istinadən bildirir ki, Sabunçu qəsəbəsində yaşayan Solmaz Quliyeva və qızı İlhamə Məmmədova, Nəsimi rayonu ərazisində yaşayan Tatyana Kanalina evlərində dəm qazından zəhərlənərək ölüblər.**

Lent.az xəbər verir ki, 23 yaşlı T.Kanalina 2014-cü ildə Bakıda keçirilən "Miss Eurovision" gözəllik müsabiqəsində iştirak edib və yarımfinal mərhələsinədək irəliləyib. O, həm də atletika idmanı ilə peşəkar səviyyədə məşğul olub və bir sıra beynəlxalq yarışlarda iştirak edib.

YENİ MÜSAVAT
N 53 (6667) 10 mart 2017

# Bakı aeroportunda terrorçunu zərərsizləşdirən azərbaycanlı ekstrasens

## Tofiq Dadaşov Amerika kəşfiyyatçılarını şoka salıb; Kasparova psixoloji dəstək verərək, ona Karpovun üzərində qələbə qazandırıb




**Bütün dünyada olduğu kimi, Azərbaycanda da bu gün özünə ekstrasens deyənlərin sayı itinətök qədər çoxdu. Deyərdim az deyil. Bu uzun siyahını xeyli qısaltdıqdan sonra biz barmağımızı gətirib saxladıq cəmi-cümlətanı dördcə nəfərin adının üstündə: Etibar Erkin, Rzayev Zirəddin, Nuridə Küskün Şuşalı və...**

Və nəhayət, Tofiq Dadaşovun adı üzərində.

***

**DOSYE: TOFİQ DADAŞOV.**

**DOĞUM TARİXİ: 1947-ci il, 11 aprel. Bakı.**

**TƏHSİLİ:** S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsi. Qiyabi şöbə.

**İLK TƏCRÜBƏSİ.** Hələ balaca uşaqkən "Nizami", "Vətən" , "Araz" kinoteatrlarının qaranlıq zallarına pulsuz, gizlincə sızmağı bacarıb. Sevimli sinif yoldaşlarını da o vaxtlar özünə qoşmağı unutmayıb. Kiyev Radiotexnika Texnikumunda təhsil alarkən tale yolları məşhur ekstrasens Volf Messinqlə kəsişib. Qərara gəlib oxşar repertuarla qastrollara çıxıb bütün SSRİ ərazisini gəzib dolaşsın. Arzusu tezliklə çin olub - 1967-ci ildə Moskvaya dəvət alaraq "Moskonsert"də işə başlayıb.

1973-cü ildə Praqada keçirilən Ümümdünya Parapsixologiya Konqresində, nəhayət, necə deyərlər, çiçəyi çırtlayıb. Düşüb aparıcı dünya parapsixoloqlarının diqqət mərkəzinə.

***

**Sonralar bu səhnəni müsahibələrinin birində belə təsvir edir:**

"Konqress iştirakçıları iki qismdi - bir tərəfdə qalstuklu alimlərdi, digər səmtdə ayaqyalın, uzunsaçlı mediumlar, ekstrasenslər. Ancaq heç biri ortaya düşüb öz kəramətini nümayiş etməyə tələsmirdi. Mən qalmışdım arada, bilmirdim nə edim, harda, kimin böyründə gedib əyləşim. Gördüm həəə...bura əsl məqamdı, çətin belə fürsət bir də əlimə keçsin.

Sükut buzunu mən qırdım ilk olaraq. Siftəni mən etdim. Səhnəyə sıçrayıb üzümü çoxsaylı Amerika nümayəndələrinə tərəf tuşladım. Dedim, ürəklərində bir söz tutsunlar. Bəs mən bu sözü indicə dilimə gətirəcəm.

Bilmirəm niyə, hansı səbəbə qəfil, öz-özünə "bakstor" kəlməsi hardansa gəlib qondu dodaqlarıma. Söz ağzımdan çıxınca, Amerika nümayəndə heyəti içindən bir uğultu qopdu ki, gəl görəsən. Sonra bəlli oldu niyə. Demə, amerikalılar ürəyində məhz bu adı tutublarmış. Demə, eyniadlı mütəxəssis - Amerika Federal Tədqiqatlar Bürosu sədri Edqar Quverin elmi işlər üzrə müavini, məşhur alim Kliv Bakster məhz bu nümayəndə heyəti tərkibində imiş. Öz adını eşidincə o, oturduğu kreslodan dik yuxarı atıldı. Sonrakı gurultulu alqışlar bir an davam edib, tükənmək nədi bilmədi. Durnanı düz gözündən vurmuşdum sanki. Kliv Bakster elə-belə adam deyildi qətiyyən. Məşhur "Yalan detektoru" makinasının ixtiraçısıydı. Makinanın bir özəlliyi vardı - yalanı anında deşifrə edirmiş. Sonra məni gətirib əyləşdirdilər bu makinanın arxasında. Ancaq son nəticəni məndən də gizlətdilər. Sakit, lal-dinməz bir xeyli zaman üzümə baxıb müqəvva kimi yerlərində quruyub qaldılar".

***




**KİÇİK HAŞİYƏ:** Eşitdiklərinizdə, əslinə qalarsa, təəccüblü heç nə yoxdur. ABŞ-da elə indi də parapsixologiya sirləri Pentaqon hərbi kəşfiyyatı cəbbəxanasındadır. Vaxtilə məşhur general Albert Stabblbayn, "Qış məhsulu" əməliyyatı çərçivəsində bir çox Amerika ekstrasenslərini məxfi "Mankind Research Centre" şirkətinə yığaraq, onların köməyi ilə itkin insanların ovuna çıxarmış. General özü də, necə deyərlər, "kəşfül-kəramət" sahibiymiş guya. Uzaqdan-uzağa, dəmir qaşığa əl dəymədən, onu əyməyi bacarırmış. Həmin əyri qaşıq indi də Pentaqonda göz bəbəyi kimi qorunub saxlanır.

***

**Tofiq Dadaşovun bu misilsiz istedadı SSRİ-də də ilk olaraq kəşfiyyat qurumlarını maraqlandırır. Moskvaya dönüncə onu aeroport ərazisində "qarayaxa" KQB zabitləri qarşılayıb götürüb gətirirlər dəbdəbəli "Rossiya" otelinin geniş giriş foyesinə.**

**Söhbətimizin ardını indi Tofiq Dadaşovun öz dilindən eşitsək yaxşıdır:** "Görüyüm xarici turistlərin ümumi sayı hardasa 150 nəfərdən az yox, çox olardı bəlkə də. Çekistlərdə dəqiq informasiya vardı ki, bəs bu 150 nəfərdən biri xüsusi təyinatlı casusdu. Gəl, indi bu izdihamın içindən həmin casusu aşkarla görüm, necə aşkarlayırsan. Şübhəlilər artıq bizimkilərin tam nəzarəti altında idı. Ancaq mən bizim çekistlərə məsləhət gördüm, bütün diqqətlərini uzaqdakı ağ plaşlı, sarıtəhər bir kişiyə tərəf yönəltsinlər".

***

**Əsl nəcib seyidsənsə...üzr istəyirəm, əsl nəcib ekstrasensənsə, gərək təkcə indiki dövrün düyünlü sirləri ilə kifayətlənməyəsən. İmkan düşüncə ən qədim sirlərin də üzərindən tozlu pərdələri qaldırmağı bacarasan. Tofiq Dadaşovun istedadının bu tərəfi də var. Məşhur orta əsrlər rəssamı Leanardo da Vinçinin ölməz "Jakonda" tablosunun sirrini açmaq xoşbəxtliyi də məhz həmyerlimiz Tofiq Dadaşova məxsusdu, biləsiz:**

"1981-ci ildə köhnə tanışlardan biri - məşhur İT mütəxəssi, bir gün mənə bu tablonu göstərərkən daxilimdə şimşək çaxdı elə bil. Şəklə bir dəfə baxdım, iki dəfə, üç dəfə... Axır qərara gəldim ki, təsvirdəki qadın boyludur. Xüsusi cavabımı kağıza köçürüb qoydular çox bahalı bir zərfin içinə. Göndərdilər Luvr muzeyi rəhbərliyinə. Cavabın bir nüsxəsi indi orda saxlanılır, digəri Puşkin adına Təsviri Sənət Muzeyinin zəngin arxivində. Cavabdakı bu sətirləri indi də unuda bilmirəm - "Qadının 19 yaşı var... Təzəlikcə ərə gedib... Gördüyümüz, onun həyatdakı ilk və son portretidir. Əri Françeskonun hədiyyəsidir ona. Qadın, xəfifcə narahatdı. Qadına elə gəlir ki, rəssam tələsib. Gözəlliyini tam şəkildə kətan üzərinə köçürməyi bacarmayıb. Ən vacibi - boylu olduğunu hiss etməyib. Qadın təkcə elə bax bu sirrinə görə özünü hamıdan üstün bilir. Rəssama kinayə dolu baxışlarını zilləyir".

**KİÇİK QEYD:** Sonralar, 2002-ci ildə alimlər Cakondanın əynindəki gen dona xüsusi fikir verirlər. Arxivləri alt-üst etdikdən sonra bəlli olur ki, bu cür, bu rəngdə gen paltarları İntibah dövründə məhz boylu qadınlar geyirmişlər.

Beləliklə, Cakonda təbəssümünün sirrini açan kəs, eşidin, bilin, bizim həmyerlimiz, məşhur Azərbaycan ekstrasensi Tofiq Dadaşovdur. Məncə, biz bu nailiyyətimizlə indi ancaq qürurlana bilərik. Cavabın orijinal mətni indi Luvr eksponatları sırasında, qalın şüşə altında qorunub saxlanılır. İcazə verilmir üzərinə birçə tük belə qonsun.

***

Məşhur Harri Kasparov qazandığı şahmat çempionu tacına görə də məhz Tofiq Dadaşova borcludur, biləsiz. Mövzunun ətraflı tədqiqindən sonra mən indi də bilmirəm burda əsl qalib, əsl çempion kimdi - Harri Kasparov, yoxsa Tofiq Dadaşov?

**Dövrü mətbuatda hadisələrin gur axarını o bax bu cür təsvir edir indi:**

"Azərbaycan rəhbərliyi o zaman - 1984-cü ildə, gecə vaxtı mənə zəng vurub xahiş etdi ki, təcili olaraq Harri Kasparovla görüşüm. O vaxt bizim Harri Kasparov öz rəqibi Andrey Karpova 5-3 hesabla uduzurdu. Ümid ancaq mənə idi. Harriyə zəng etdim. Dedim, hesab 5-4 Karpovun xeyrinə olacaq bir azdan. Ancaq oyundakı dönüş də, darıxmayın, bax bu nöqtədən başlayacaq sizin üçün.

Növbəti oyun zamanı zalda mən də vardım. Oturmuşdum tərs 13-cü sırada. Məşqçi Nikitin qalmışdı bir kənarda. Harri ancaq mənim göstərişlərimi yerinə yetirir və...

Və udurdu!!!

Ancaq indi mən Karpovun qarşısında tər tökür, xəcalət hissləri keçirirəm. Düzü, çempion tacı əslində onun haqqı idi, nəinki Kasparovun. Lənət şeytana...

Bir dəfə yadımdadı, uşaq vaxtlarımda qonşumuz bizə gəlib telefonumuzdan öz ərinə zəng açdı. Aralarındakı söhbətdən sonra mən dilimi dinc saxlamadım. Dedim, ehtiyatlı ol, ərin az sonra öləcək. Ağzım falmış. Elə də oldu.

İlk dəfə "qara şeytan" adını alnıma məhz o vaxt yaxdılar mənim. İkinci dəfə bu "qara şeytan" adını öz daxilimdən eşitdim. Kasparova köməyimdən sonra eşitdim bu etirafımı...

***

1989-cu ildə Bakı aeroportunda ciddi hava quldurluğu hadisəsi baş verir. "Varonej-Bakı" reysi ilə uçan təyyarə "Binə" aeroportuna yaxınlaşarkən Stanislav Leonidoviç Skok adlı bir cinayətkar tərəfindən girov götürülür qəfil. Cinayətkarın tələbi 500 min ABŞ dolları, yarım milyon Almaniya markasıyla bitmirdi. O, xaricə - Nepala uçmağı tələb edirdi həm də.

Gecə vaxtı Azərbaycan SSR DTK rəhbərliyi təcili olaraq Tofiq Dadaşovun evinə zəng vurur. Xahiş edir məhz o, bu məxfi əməliyyata qatılsın.

Aeroporta gəlincə, Tofiq Dadaşov görür ki, Moskvadan gəlmiş "Alfa" xüsusi təyinatlıları artıq ordadır. Əməliyyat "Nabat" adını alır. Dəqiqələr, saniyələr başlayır sürətlə axmağa.

**KİÇİK HAŞİYƏ:** Sonralar Rusiya jurnalistləri Tofiq Dadaşovun bu əməliyyatdakı müsbət iştirakına kölgə salmaq niyyəti ilə 1999-cu ilin martında Azərbaycan Milli Təhlükəsizlik Komitəsinə yazılı şəkildə müraciət edirlər. O zamankı milli təhlükəsizlik nazirinin müavini İ.M.Bağırovdan xahiş edirlər, bu əməliyyat zamanı Tofiq Dadaşovun iştirakını təsdiqləyən məxfi sənədləri arxivdən tapıb surətini onlara çatdırsın. 1999-cu ilin iyununda müvafiq sənədlərin surəti Azərbaycandakı Rusiya Federal Təhlükəsizlik Xidməti nümayəndəsi polkovnik M. P. Orlova ötürülür.

Görünür, Tofiq Dadaşovun bu əməliyyatdakı xüsusi iştirakı Rusiya çekistlərinin marağını özünə cəlb edibmiş. Hadisənin rəsmi təsdiqi yəqin kimlərəsə çox vacib imiş.

**Sənədin qısa məzmunu belədir:**

"Tofiq Dadaşov BMT nümayəndəsi adı altında cinayətkarla danışıqlara girib, onun psixoloji portretini bizim üçün çəkməli idi...

Təyyarəyə dirənmiş pilləkanın üstündə dayanaraq terrorçu ilə danışan Dadaşov T. tezliklə müsbət nəticələr əldə edir. Deyir ki, cinayətkara siqaret ötürək. Ancaq alışqan verməyək ona. Kibrit qutusu verək. Terrorçu qutunu açıb kibrit çöpünü alışdırarkən iki əlindən istifadə etmək məcburiyyətində qalacaq. Silahı kənara qoyacaq bu an. Həmin vaxt cəld hərəkət edib terrorçunun əl-qolunu burmaq lazımdı...

***

Bunu isə ancaq Remboya bənzər bir pəhləvan edə bilərdi o vaxt. Bu "Rembo", sən demə, çox da uzaqda deyilmiş, elə təyyarənin salonunda imiş. Həmin şəxs sonralar general-mayor rütbəsinə qədər yüksəlib, Aslanbek Axmedoviç Aslaxanov kimi məşhurlaşacaq. 1989-cu ildə isə Asalxanov kiçik rütbəli bir milis zabiti kimi təyyarələrdə mülkü geyimdə uçur, sərnişinləri gözlənilən təhlükələrdən qoruyurdu.

Uğurlu əməliyyatdan sonra o, Sovet İttifaqı Qəhrəmanı adına, Tofiq Dadaşov isə fəxri diploma layiq görülür.

***

İştah diş altındadır. Bu uğurdan sonra Tofiq Dadaşovun başı lap gicəllənir elə bil. Başlayır öz xidmətləri müqabilində milyonlarla pul tələb etməyə. 1995-ci ildə Moskvadakı Vladislav Listyevin qətlindən sonra kriminalistlər yenə də bizim ekstrasensi xatırlayırlar. Ancaq qonorarın fantastik rəqəmlərini eşitdikdən sonra başlarını bulayıb təkliflərini geri götürməyə məcbur qalırlar.

***

Tofiq Dadaşov, təəccüblənməyin, qapıbir qonşumdu mənim. Ofisi uzun zaman evimizin düz qarşısında, indiki "Şahənşah" şadlıq sarayının ərazisində yerləşən bu insanla dəfələrlə gecələr üzbəüz gəlmişəm. Ancaq canlı ünsiyyətə girməmişəm bu şeytan balası ilə.

Ekstrasenslər öz ofislərini elə-belə yerdə tikib ucaltmaz. Kosmik enerjinin bol olduğu bir nöqtədə açarlar öz ofislərini adətən. Bizim tərəflər, görünür, belə ünvanlardan biridi.

**Mən də təsadüfən bura atmamışam öz matahımı...**

❑ Həmid HERİSÇİ

YENİ MÜSAVAT
N 53 (6667) 10 mart 2017

# Manat möhkəmlənir, ancaq banklar manatla kredit vermir

## “Milli valyutanın stabil qalmasının səbəbi iqtisadi amillərlə izah oluna bilməz”

**Rusiya rublu gücləndikdən sonra bu ölkədə bankların əhaliyə kredit verməsində artım müşahidə olunur. Azərbaycanda isə fevral ayının 3-dən etibarən manatın məzənnəsində stabillik yaransa da , hələ ki banklar manatla kredit verməməkdə israrlıdırlar. Banklar manatla kredit verməkdən, vətəndaşlar isə dollarla kredit almaqdan çəkindikləri üçün demək olar ki, bank sektorunda kreditləşmə tamamilə dayanıb. Bəs görəsən, bankların manatla kredit verməkdən çəkinməsinin səbəbi nədir? Manata inam hələ tam bərpa olunmayıb, yoxsa milli valyutanın kəskin dəyər itirəcəyi ilə bağlı cəmiyyətə açıqlanmayan proqnozlar var?**

Bu sualı cavablandıran **iqtisadçı ekspert Qubad İbadoğlu** bildirdi ki, yalnız banklar deyil, həm də biznesmenlər və istehlakçılar manata etimad göstərmirlər: “Digər səbəbi isə manatla pul kütləsinin azalması və manat qıtlığı ilə bağlıdır. Bu da makro-monetar siyasətin xarakterindən irəli gəlir və bu vasitəilə məcmu tələb məhdudlaşdırılır. Onun da yeganə effekti dollara tələbatın aşağı salınmasıdır”.

**İqtisadçı ekspert Pərviz Heydərov isə “Yeni Müsavat”a danışarkən vurğuladı ki, manatın hələ tam olaraq sabitləşdiyi haqda danışmaq tezdir:** “Bu tendensiya müəyyən vaxt aparacaq. Bunun üçün manatın dəyərini müəyyən edən amillər sırasında qeyri-neft ixracı potensialı önə çıxmalıdır. Bu isə təkcə 1 il ərzində nail olunacaq məsələ deyil. İkinci isə kreditləşməni təkcə manatın vəziyyəti ilə əlaqələndirmək də düzgün deyil.




Bankların kredit verə bilmələri üçün birincisi, onların öz vəziyyətləri yaxşı olmalıdır. Verdiyi kreditləri ala bilməyən bank istər dollarda olsun, istərsə də manatda, kredit təklifində necə maraqlı ola bilər?! İkincisi də kreditə tələbat olmalıdır. Keçəndəfəki açıqlamamda da qeyd etdim ki ölkədə iqtisadi aktivlik hal-hazırda sıfır vəziyyətindədir. Kreditlərə tələb yoxdur. İndiyədək alınan kredit vəsaitləri üzrə geri ödəniş artıq uzun müddətdir tıxacla üzləşib. Ticarət səviyyəsi minimuma enib. İşgüzarlıq üçün stimullaşdırıcı xarakter daşıyan amillər xüsusən, obyektiv nöqteyi-nəzərdən yox dərəcəsindədir. Banklar krediti kimlərə və nədən ötrü versinlər ?! Və ən nəhayət, belə məsələlərdə Rusiyadakı real şəraitlə müqayisə aparmaq düzgün deyil. Rusiyada bazar böyükdür, yerli istehsal var, bank sektoru devalvasiya prosesindən bizdəki qədər zərər çəkmədi”.

**Ekspert onu da vurğuladı ki, Rusiyada bank sistemi bizdəki ilə müqayisədə daha sağlam idi:** “Bizdə ən böyük sistem əhəmiyyətli bank olan Beynəlxalq Bank az qala bütün sektoru çökdürmüşdü. Hazırda böyük bərpa və sağlamlaşdırma prosesi gedir. Yəni ki, bütün bunlar öz stabil tempini tapmasa, normal kredit təklifinin yaranacağını gözləməyə dəyməz. Və son olaraq onu da nəzərə çatdırım ki, ölkəmizdə həm də hazırda sərt-pul kredit siyasəti həyata keçirilməkdədir. AMB-nin uçot dərəcəsi 15 % təşkil edir. Yəni faktiki manatla mərkəzi kredit resursları da ucuz deyil. Banklar belə şəraitdə hansı şəkildə manatla sərfəli kredit təklif etsinlər?..”

**İqtisadçı ekspert Natiq Cəfərli də hesab edir ki, rublun məzənnəsinin stabil qalması artıq aylardır davam edir və banklar da bu məzənnəyə adaptasiya olublar:** “Bu mənada Rusiyada kreditləşmənin həcmi artıb. Bu da iqtisadiyyat üçün çox vacibdir. Kreditləşmənin həcmi artdıqca ölkədə iqtisadi canlanma yaranır. Azərbaycanda isə bu bir aydır ki, baş verir. Manatın stabil qalmasının səbəbi iqtisadi amillərlə izah oluna bilməz. Manatın məzənnəsi inzibati üsullarla tənzimlənir. Dünyada son iki gün neftin qiyməti 8 faizdən çox aşağı düşüb. Rublun dəyəri dollar qarşısında aşağı düşüb, türk lirəsi də ucuzlaşmaqda davam edir. Bu gün dünyada dolların indeksi az da olsa yüksəlib. Amma Azərbaycanda keçirilən hərracda dollar ucuzlaşdı. Bunu iqtisadi parametrlərlə izah etmək mümkün deyil. Azərbaycanda baş verən prosesi sadə dillə izah etsək, Mərkəzi Bank dövriyyədən bacardıqca çoxlu həcmdə manat yığmağa çalışır. Dövriyyədə olan manatın həcmini 2 dəfədən çox aşağı salıb. Bu, həm banklarda manat qıtlığı yaradıb, həm də kreditləşmənin zəifləməsinə səbəb olub. Mərkəzi Bank bununla manatı qorumağa çalışsa da, iqtisadi aktivliyə zərər vurur. Bu anlamda Rusiya ilə aparılan müqayisə doğru deyil. Rusiyada qiymətli kağızlar birjası var, 11 minə yaxın şirkət gün ərzində valyuta alıb satır. Azərbaycanda isə bazarda iki oyunçu var- Mərkəzi Bank və Neft Fondu. Bu da həm məzənnədəki sabitliyin müvəqqəti olduğunu deməyə əsas verir, həm də dövriyyədə manat az olduğu üçün manatla olan kreditlərin də azaldığını müşahidə edirik”.

❑ **Nərgiz LİFTİYEVA**

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara**
**Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- ✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və spermada qan;
- ✳ Spermanın azalması, itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- ✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- ✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

**Elan**

**İqtisad Universitetinin tələbəsi Dadaşov İsmayıl Ramiz oğlunun adına olan tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

***

**Tu Qiangenin adına olan müvəqqəti qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

***

**Mustafayev Rəşad Tapdıq oğlunun adına verilmiş JN 224 saylı torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

Yeni Müsavat
N 53 (6667) 10 mart 2017




# Dinin əsli amilləri

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! İnsanın gündəlik həyatında mübarək dinimizin buyuruşları yaşatması - Allah Təalanın ümmət üçün nemət olaraq göndərdiyi 14 Məsumun (ə) amalları ilə, duyğuları ilə həmahəng olmaq deməkdir. Uca Allahdan duamız budur ki, bütün iman əhlinə həyatlarını Peyğəmbər (ə) və Əhli-Beytinə (ə) uyğun keçirmək, nəcib Əhli-Beyt (ə) mirasına sadiq qalmaq tövfiqini qismət etsin, inşəallah!**

## Namaz qılmalı və haramlardan çəkinməli

Məsumlarımızın (ə) getdiyi və bəşəriyyət üçün miras qoyduğu yol hansısa mücərrəd kateqoriyalara söykənmir. Dinimiz səlis və aydın tərzdə insanın kamala doğru gedişatını şərtləndirən amilləri göstərir. Bu sırada önəmli yeri insanın, Allah Təala tərəfindən vacib olaraq müəyyən etdiyi əməlləri yerinə yetirməsi tutur. Həzrət Əlidən (ə) nəql edilir: **"Dində əsil və əsaslı məsələ odur ki: birincisi - möminin vacib namazlara əhəmiyyət verməsi; ikincisi - günahi-kəbirələrdən çəkinməsi. Və heç zaman (bir anlığa belə) özünü bu 2 əsildən (vaciblərə əməl və haramların tərki) kənarda görməsin. Və əgər (bu ikisindən) məhrum olsa, həlak olar. Və əgər (bunları) qoruyaraq fiqh (din tanıma) və ibadətə yetişsə - həqiqi həzzə nail olmuş olar".**

Diqqət edək, Əmirəlmöminindən (ə) nəql edilən hədisdə bir sıra məsələlərin əhəmiyyətliyi vurğulanır. Burada insanın elm öyrənməsi, dini bilgilərə yiyələnməsi, tanımada yüksək dərəcəyə çatması təqdir edilir. Lakin bundan öncə, bütün müstəhəb, bəyənilən əməllərdən öncə, ən çox əhəmiyyətli bilinən əməl - vacibi namazları yerinə yetirməkdir, onlara əhəmiyyət verməkdir. Bu olmasa, digər işlərin əsası yoxdur, onlar köksüzdür, əsilsizdir, vücudi baxımdan insanı heç bir müsbət nəticəyə çatdırmayacaqdır.

Deməli, iman gətirən çalışmaqdan, ticarətdən, tədris almaqdan, digər işlərdən öncə, mütləq gündəlik vacib namazlarını qılmalıdır. İmam Əli (ə) məntiqi öyrədir ki, dində, imanda olmaq iddiasında olan bir adam iki minimal zərurətə riayət etməlidir - vacibi namazlara əhəmiyyət vermək və haramlardan çəkinmək. Əgər insan görsə ki, bu iki məsələdə süstlük edir, zəiflik təzahür edirsə, bu iki mühüm mövzuda geriləyirsə, deməli, öz durumu ilə bağlı ciddi təbil çalmalıdır. Hətta nəzər edib gördükdə ki, günahi-kəbirələrin sərhədlərinə bir az yaxınlaşıb, təcili surətdə öz vəziyyətini təftiş etməli, zəif nöqtələrini müəyyən edərək, bunların köklü islahına səy etməlidir. Yəni bunlara riayət edilməsi - dinin köklü, əsaslı, fundamental amillərindəndir. Dinimiz istəyir ki, insan bir anlığa belə, vacib namazların əhəmiyyətliyindən və haramların tərk olunmasından özünü kənarda qoymasın. İnsan bilməlidir ki, onun mövcudiyyəti, imanı, dindarlığı, bəndəliyi bu iki əslə bağlıdır. İslam bəlli edir ki, bu əsaslı məsələləri nəzərdən qaçırmayaraq maariflənsə və ibadətə yetişsə - həqiqi ləzzətə nail olar.

## Namazdan muğayat olmaq

Mübarək hədisdə göstərilmiş "ibadət" məfhumu, dinimizin nəzərində hər nə Allaha görə edilirsə, hamısına şamil olunur. İnsanın istər halal ruzu qazanması, istər elm öyrənməsi, istər ailə üzvlərilə mehriban dolanması, valideynlərinə ehtiram qoyması, qonşuları ilə yola getməsi - hər bir işi ki, Allaha görə edilir - ibadətdən sayılır.

Eyni zamanda mübarək hədisdə həqiqi ləzzətin konsepsiyası da açıqlanır. Məlum olur ki, həqiqi ləzzət - bəndənin Rəbbinə tərəf, kamala tərəf can atmaqla, pisliklərdən qaçmaq və yaxşılıqlara meyil etməklə səciyyələnən bir haldır. Öz ruhiyyəsini islah edən adama, Allah Təala da həqiqi ləzzəti inayət edər.

Ümumiyyətlə, diqqət yetirsək, Peyğəmbərimizdən (s) və Əhli-Beytindən (ə) nəql edilən hədislərdə bu iki məqama: vacibi əməllərin simvolu olaraq namaza və haramlardan çəkinməyə son dərəcədə böyük əhəmiyyət verilmişdir. Namaz - insanı gün ərzində gözəl duruma yönəldən, çirkablardan yan gəzməyə yardım edən, Allahı xatırladan və yüzlərlə digər faydası olan bir əməl kimi dinimiz tərəfindən təqdir olunur. İnsan bu iki bünövrə üzərində hər hansı işini qursa, nəticə, inşəallah, çox gözəl olar. Rəsuli-Əkrəmdən (s) buyurulur: **"İnsanın dindarlığı üçün, namazlarından çox muğayat olmaq - kifayətdir".**

Yəni bir kəs ki, dindarlığından xatircəm olmaq istəyir, imanının vəziyyəti barədə real durumu öyrənmək istəyirsə - namazlarına diqqət yetirməlidir. O biri işlər bunun üzərində, bunun bazasındadır. Və əgər insan namazlarından muğayat deyilsə, bu, dindarlığı üçün kifayət etmir, insan üçün əslində təhlükəli bir vəziyyət yaranır.

Merac hədisində gəlmişdir ki, Peyğəmbərimizə (s) Rəbbi tərəfindən buyrulmuşdur: **"Ey Əhməd! 3 bəndəyə təəccüb edirəm: "bunlardan biri" namaza duranda, əllərini kimə tərəf uzatdığını və kimin qarşısında dayandığını bilən və bununla belə yuxulu və süst olan bəndəyə..."**

İnsan namaza durduqda fərqinə varmalıdır ki, Aləmlərin Rəbbinin dərgahına müraciət durumundadır və bunun mərifəti əsasında qəlbində bir oyanış, diqqət, cəmləşmə, iradənin yönəlməsi baş verməlidir.

## Öz binanı uçurma

Namazla bağlı çoxlu çoxlu ayıldıcı hədislər nəql edilmişdir. Bu sırada İmam Muhəmməd Baqirdən (ə) nəql edilən hədis xüsusən diqqət çəkir: **"Namazı yüngül sayma! Çünki Allahın Peyğəmbəri (s) dünyadan köçəndə: "Namazı yüngül sayan məndən deyil!" - deyə buyurmuşdur".**

Hər bir imanlı insan üçün nəzərdə saxlanılmalı məsələdir ki, Rəsuli-Əkrəm (s) dünyadan köçdüyü məqamda ümməti üçün ən vacib məsələ kimi, namaza məsuliyyətli yanaşmanı vurğulamışdır.

Nəql edirlər ki, İmam Cəfər Sadiq (ə) dünyadan köçməyindən öncə qohumları və yaxınlarını yanına yığmış və onlara buyurmuşdur: **"Heç zaman bizim şəfaətimiz namazı yüngül sayana çatmaz".**

Əhli-Beytin (ə) şəfaəti, insan üçün Allahdan bağışlanma diləməsi olmasa, insanın vəziyyəti necə olar? Çox acınacaqlı! Və bu şəfaəti əldə etmək istəyən, gərək namazına qarşı diqqətli, sayğılı olsun.

Qeyd olundu ki, namazla yanaşı toxunulan ikinci məsələ - günahlardan çəkinməklə bağlıdır. Əhli-Beytdən (ə) nəql olunur: **"Əgər xeyir əməl etmirsinizsə, çalışın və səy edin ki, (heç olmasa) günah da etməyin. Çünki binanı tikən və onu uçurmayanın binası, hərçənd kiçik də olsa, ucalar. Amma binanı tikən və sonra onu uçuran şəxsin binası əsla ucalmaz".**

Elə olur ki, insanın əlindən gəlmir nə isə əhəmiyyətli, gərəkli bir iş görsün. Dinimiz buyurur ki, belə olan təqdirdə, heç olmasa günah etmə ki, az əməlin də olsa, nə isə ərsəyə bir şey çıxarmış olarsan. Amma günahdan çəkinməyən insan, xeyir iş görmüş olsa belə, öz abadlıq durumunu törətdiyi günahla məhv etmiş olur.

Həzrət Əli (ə) buyurur: **"Bu insanlara heyrətlənirəm. Sağlamlıqlarına zərər dəyəcəyindən qorxaraq pəhriz saxlayırlar, amma onları cəhənnəm əzabına atan günahlardan necə də çəkinmirlər!"**

Çox maraqlıdır ki, elmi-texniki inkişaf getdikcə, insanlar bir çox məsələlərə diqqətini artırır: havanın, ümumilikdə ətraf mühitin keyfiyyətinə, qidanın tərkibinə və bir çox digər əhəmiyyətli mövzulara. Amma bununla yanaşı, ən əhəmiyyətli olan mövzulara - öz ruhi durumuna, öz daxili aləminə insan qətiyyən diqqət yetirmir.

## Salavat günahı aradan aparar

Dinimiz günaha bir mərəz olaraq münasibət bəsləyir. Həzrət Əlidən (ə) nəql edirlər: **"Günahlar - xəstəlikdir. Onların dərmanı Allahdan istiğfar diləmək və şəfası isə bir daha o günahı təkrar etməməkdir".**

Günah - insan ruhunun xəstəliyidir. Və onun müalicəsi da məhz bu müstəvidə - Allahdan tövbə və bağışlanma istəməkdədir. Bu mərəzdən qurtulmanın yolu isə günaha ikrah dolu münasibət bəsləməkdən, günahı təkrarlamamaqdan keçir.

Günahın mövcudiyyəti digərləri üçün də bir imtahan şəraiti yaradır. Belə ki, Həzrət Peyğəmbərdən (s) nəql edirlər: **"Günah, onu etməyən kəs üçün də bədbəxtlikdir. Çünki əgər onu eyib tutarsa - ona düçar olar (günah etmiş olar), əgər onun qeybətini edərsə - günahkar olar və əgər ona razılaşarsa - ona şərik olar".**

Günah o qədər zərərli bir şeydir ki, hətta günah etməyən, amma yanında günah baş verən üçün də problem kəsb edir. Belə ki, insandan prinsipiallıq, dəqiq vətəndaş mövqeyi tələb edir, günah etmiş şəxsi qınamağı, onun əməllərinə qarşı mövqe sərgiləməyi istəyir. İnsan laqeydlik edəndə də, rişxənd edəndə də, qeybət edəndə də günaha qol qoymuş olur. Bəs nə etməli? İnsan günahkarın durumuna sevinməkdən, İmən belə deyiləm» deyərək təkəbbürə qapılmaqdan çəkinməli, günahkarı yaxşı işlərə dəvət edib, pisliklərdən çəkindirməlidir. Axı münbit şərait yarandıqda, bir günah toplumda digər günahların da yayılmasına, tirajlanmasına gətirib çıxarır, xüsusən də günaha razı olmaq məqamında. İnsandan tələb olunan odur ki, günahın ayaq tutub yeriməsinə biganə qalmasın, bacardıqca bunun qarşısını alsın.

Günahdan qurtulmaqla bağlı İmam Rzadan (ə) nəql edirlər: **"Kim günahlarının silinməsi üçün bir iş görə bilmirsə, Həzrət Muhəmmədə (s) və onun pak Əhli-Beytinə (ə) salavat göndərsin. Çünki bu əməl, günahların kökünü kəsər".**

Çox əhəmiyyətli məqamdır. Rəsuli-Əkrəmə (s) və Əhli-beytinə (ə) salavat göndərmək - mənəvi mühitin bərqərar olunması üçün önəmli vasitələrdən biridir. Salavat vasitəsilə yaranan bu mənəvi ab-hava, günaha mürtəkib olunmanın qarşısını alır, insanda günaha qarşı mənfi münasibəti formalaşdırır, ruhunda təmizləyici, islahedici təsir qoyur. Bu təmizləmə də günahın qoyduğu yaraları, ləkələri aradan aparır. Allah Təala cəmi bəşəri salavat əhlindən qərar versin, inşəallah!

Yeri gəlmişkən, milli-mənəvi bayramları yaşatmağın əhəmiyyətliyinə də qısa toxunaq. Qarşıdan həyatın təzələnməsini, təbiətin oyanmasını simvolizə edən Novruz bayramı gəlir. Dinimizin bu bayrama münasibəti çox gözəldir. Çünki Novruzun yaşatdığı dəyərlər: mehribanlıq, şəfqət, səxavətlilik, qohum-əqrəba ilə ünsiyyət, küsülülərin barışması və digər gözəl adətlər bu bayramın silinməz atributlarındandır. Zaman-zaman bu bayramı məhv etmək istəyənlər olub və indi də bu yöndə çalışanlar var. Amma xam xəyaldır - Novruz xalqımızın daxilinə elə hopmuşdur ki, onu heç bir vəchlə aradan aparmaq, inşəallah, mümkün olmaz!

**Allahım, bizləri dünya və axirətdə Həzrət Peyğəmbər (s) və Əhli-Beytlə (ə) birgə olanlardan qərar ver!**

**Allahım, bizləri və cəmi insanları namaza diqqətli olanlardan, haramlardan çəkinənlərdən qərar ver!**

**Allahım, müşküllərin həllini, toplumlarda günahlara qarşı dözümsüzlük ab-havasının yaşanmasını inayət et!**

**Allahım, işğal altında olan torpaqların, ilk növbədə Qarabağ və Qüdsün azad olunmasını, əsirlərin azad olmasını, 12-ci İmam Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et! Amin!**



YENİ MÜSAVAT

Son səhifə

N 53 (6667) 10 mart 2017




## İnəklə öküzə toy etdilər - 27 min dollara

**Hindistanın qərbində yerləşən Hudcarat ştatında öküzlə inəyin toy mərasimi keçirilib. Lenta.ru saytının xəbərinə görə, mərasimə 27 min dollar vəsait xərclənib. 300 nəfərin qatıldığı tədbir bütün dünyanın diqqət mərkəzində olub. Heyvanların sahibləri təmtəraqlı tədbir keçirməklə sözügedən heyvanların Hindistan mədəniyyəti və insanları arasında mühüm rolu olduğunu qabartmağa çalışıblar. Arcun ləqəbli "bəy" və Punam ləqəbli "gəlin"i isə mərasimə xüsusi avtmobillə gətiriblər. Sahibinin sözlərinə görə, inəyinə doğma qızı kimi yanaşır: "Mən 30 ildən artıqdır ki, inəklərlə yaşayıram. Ona görə də heyvanların gerçəkdən nəyə layiq olduğunu məndən yaxşı bilən yoxdur".**

Tədbir hind ritualları ilə keçirilib. Daha öncə Amerikanın Uttar-Pradeş ştatında iki itin toy mərasimi keçirilib. 5 min qonağın dəvət olunduğu mərasimdə eyni zamanda dicey də çıxış edib, toydan sonra isə heyvanlar xüsusi bəzədilmiş maşında evlərinə aparılıblar.

İnək Hindistanda müqəddəs heyvan hesab olunur. Hindistan ərazisinin böyük hissəsində onların öldürülməsi qadağan olunub.

# Bu paltaryuyan susuz işləyir

**Argentinalı iki tələbə susuz işləyən paltaryuyan maşın icad ediblər. Bu, əslində Kordova Milli Universitetinin tələbələri Nikolas Arayya və Nikolas Vuksanovikindiplom işidir. Onlar su əvəzinə karbon dioksidindən və ya karbon qazından istifadə etmək təklifini irəli sürüblər.**




Arayya və Vuksanovik bu ideyanı müasir dünyanın şirin su çatışmazlığı və ekoloji problemlərinin həllinə özünəməxsus töhfə hesab edirlər. Az da olsa, su işlədən quru təmizləmə qurğularından fərqli olaraq, "Nimbus"adlı paltaryuyan maşın tam susuz rejimdə işləyir. Bundan başqa, o, adi paltaryuyan maşından xeyli az elektrik enerjisi sərf edir. Belə təmizləmədən sonra paltarı nə qurutmağa, nə də ütüləməyə ehtiyac qalır. Gənc mütəxəssislər istehsal dizaynı sahəsində yüksək qiymət alıb və artıq öz ixtiralarını patentləşdiriblər.

# Avtomobil qəzası keçirməsəydi, hamilə qala bilməyəcəkdi

**43 yaşındakı fransız qadın Keyt Mansbricin başına qəribə hadisə gəlib. O, 27 yaşında erkən menopoza girdiyi üçün ana ola bilməyəcəyi aşkarlanıb. "Daily Mail"in xəbərinə görə, qadın bir neçə il sonra Fransada velosiped sürərkən bir maşınla toqquşub və ayaqları əzilib, beynində travma yaranıb, bir daha gəzə bilməyib. Həkimlər bundan sonra onun ancaq əl arabasında gəzə biləcəyini deyiblər. Amma hardasa möcüzəni xatırladan bir hadisə baş verib, qəza nəticəsində adrenalin artımı doğuş hormonlarını tətikləyib. Mütəxəssislər deyiblər ki, travma çox nadir görülən kimyəvi dəyişikliklərə səbəb olur. Amma möcüzəvi bir şey meydana gəlib. Qəzadan 3 il sonra qadın hamilə qalıb. Bununla da Keyt həyatının ikinci şokunu yaşayıb. Tibb bacısı olan Keyt deyib ki, bir tərəfdən həyatının ən pis hadisəsi baş versə də, digər tərəfdən möcüzə bir uşağa sahib olub. Keytin qızı hazırda 6 yaşındadır. O, Rubi ilə xoşbəxt bir həyat yaşayır və qəzaya görə ...Allaha minnətdardır.**





## Əri vəsiyyət edib: "Mən öləndən sonra ancaq səyahət et!"

**Amerikalı Li Voçtstetter adlıq qadın ərinin ölümündən sonra 7 ilini kruizdə keçirib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər verir. Qadın 1997-ci ildə ərinin ölümündən sonra Floridadakı evini satıb, mərhumun "heç vaxt kruizi dayandırma" vəsiyyətindən sonra hər il səyahətə 160 min dollar sərf edir. Səyahət zamanı qadın 100-dən çox kruizdə olub. 86 yaşlı qadın deyib ki, onu daha çox Asiya ölkələri cəlb edir. Çünki oradakı həyat ABŞ-dakından qat-qat yaxşıdır. Qadının ən çox sevdiyi ölkə isə Türkiyə olub. O, hər dəfə İstanbula gedəndə "Qapalı çarşı"ya baş çəkib maraqlı geyimlər alır. Dediyinə görə, geyim məsələsində hər zaman özünə qırmızı işıq yandırır. Çünki çox paltar alarsa, kayutada onu saxlamağa yeri olmur. 86 yaşlı qadın bu səyahətlər zamanı daha çox nəvələri və üç uşağından ötrü darıxır. O, əzizləri ilə internet vasitəsilə əlaqə saxlayır.**




**QOÇ** - Astroloji göstəricilər qismən gərgin gün yaşayacağınızı bəyan edir. Hər hansı mübahisəyə, riskli iş və sövdələşmələrə "yox" deməlisiniz. Xətakar insanlardan uzaq olun.

**BUĞA** - Ağıllı addımlarınız ətrafda hər şeyin xeyrinizə dəyişəcəyinə təkan verməkdədir. Bu isə gün ərzində fəaliyyətlə bağlı uğurlarınızın start götürməsinə imkan yaradacaq.

**ƏKİZLƏR** - Yaxşı olar ki, bütün vacib işlərinizi bu gün başa çatdırasınız. Ən azı ona görə ki, sonrakı günlərdə buna imkan tapmayacaqsınız. Özünüzü hər addımda bədxahlardan qorumağa çalışın.

**XƏRÇƏNG** - Astroloji göstəricilərə görə, qarşınızda anlaşılmaz bir gün dayanıb. Odur ki, bu tarixdə qeyri-ənənəvi işlərə aludə olmamalı, sabitliyinizi təmin etməlisiniz. Səhhətinizi qoruyun.

**ŞİR** - Sutka ərzində bürcünüzdə bərqərar olan Ay sizə ümumi gərginlik vəd edir. Bu isə hər addımda daha da ehtiyatlı davranmağınızı tələb edir. Yeni təkliflərə razılıq verməyin.

**QIZ** - Bu gün özünüzü olduqca ciddi aparmalısınız. Çünki istənilən xırda zarafat münaqişəyə səbəb ola bilər. İmkanlı adamlar vasitəsilə problemlərinizi aradan qaldırmağa çalışın.

**TƏRƏZİ** - Əgər maddi vəziyyətiniz imkan vermirsə, uzaq yola çıxmaq planınızı təxirə salın. Yoxsa səfər boyu gərginlik sizdən əl çəkməyəcək. Şəxsi büdcənizin qayğısına qalmağa çalışın.

**ƏQRƏB** - Daxili gərginliyiniz günorta saatlarından etibarən aradan qalxmağa başlayacaq. Bu isə nəzərdə tutduğunuz planların icrasını sürətləndirəcək. Amma sözünüzün ağası olmağı da bacarın.

**OXATAN** - Ümumi ovqatınız yüksək olduğundan xırda gərginliklər gözünüzə görünməyəcək. Amma mistik düşüncələrə də qapılmaq olmaz. Başınızın üstündə yalnız Tanrı qüdrətini hiss edin.

**OĞLAQ** - Qarşınızda duran vəzifələrin öhdəsindən məsuliyyətlə gəlməyə çalışın. İndi nüfuzunuzu artırmaq üçün imkanlarınız genişdir. İşdən sonra yaxınlıqda yaşayan ünvanlara qonaq getmək olar.

**SUTÖKƏN** - Naharaqədərki süstlüyünüzü nəzərə almasaq, qalan müddətdə işləriniz qaydasında gedəcək. İndi siz puldan daha çox münasibətləri tənzimləməyə səy göstərməlisiniz. Digər işlər düzələndir.

**BALIQLAR** - Bəxtinizə təzadlı gün çıxıb. Belə ki, nahara qədər qarşılaşacağınız uğurlar sonrakı müddətdə tamamilə əks istiqamətə yönələ bilər. Odur ki, yalnız günün birinci yarısında aktiv olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bunu da reklam etdilər...



**Türkiyənin Antalya şəhərində insan alveri ilə məşğul olan cinayətkar qrup "unikal" bir üsul düşünüb. Onlar müştərilərinə münasibət quracaqları qadınları seçmək üçün reklam filmi hazırlayıblar. 58 yaşındakı qrup başçısı H.Ş. dərhal həbs olunub. Əməliyyat çərçivəsində polislər H.Ş.-nin yanına müştəri kimi gələrək, bu filmi izləyiblər. Həbs olunan H.Ş bildirib ki, indi 21-ci əsr olduğu üçün müştərilərinə bütün imkanları təqdim etmək istəyiblər. Onun sözlərinə görə, bu üsul Avropada da geniş yayılıb.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100